# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Oktyabr 2023 (34)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.
**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL**
**Ədəbi tənqid məsələləri üzrə menecer:** **Sərvanə DAĞTUMAS**
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət EMİNQIZI**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Nur Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağaməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

# BU SAYIMIZDA

Baş redaktordan ........................................................... 3
Yazarlar jurnalı ........................................................... 4
İlqar Fəhmi. Çingiz Adullayev haqqında........................... 5
Sevindik Nəsiboğlu. Heydər Əliyev-100........................... 23
Zaur Ustac. 58-ci yazı. ........................................................ 31
Məmməd Mərzili. “Ağ-qara hekayələr” ............................ 39
Feyruz Muradov. Mirzə Xəlil ......................................... 47
Budaq Təhməz. Heydər Əliyev ili .................................... 54
Təvəkkül Goruslu. Şeirlər... ............................................... 58
Murad Məmmədov. İncə dərəsi.......................................... 62
Mövlud Ağamməd. Şeirlər... ........................................... 69
Təranə Dəmir. Şeirlər.. ...................................................... 73
Elnarə Qaragözova tribunada ............................................ 83
***Foto qalareya-təqdimatlar-təbrik***........................................... 86

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan “Yazarlar”ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***“Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək”*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan “Yazarlar” kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ** **saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93
“YAZARLAR, ANCAQ YAZARLAR…” © YAZARLAR



Zaur USTAC

## BAŞ REDAKTORDAN

Salam olsun, dəyərli oxucular!
Jurnalımızın Oktyabr 2023-cü il (34-cü sayı) ilə görüşünüzə gəlmişik.
Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında daim müdrik siyasi lider həmçinin müasir müstəqil Azərbaycanın qurucusu kimi yaşayır! Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Müasir Azərbaycanın tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır! Bildiyiniz kimi "Yazarlar" jurnalı olaraq bu ilə kiçik töhfə vermək məqsədilə jurnalımızın May 2023-cü il (29 ) sayını "Heydər Əliyev -100" başlığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr etmişik. Bundan başqa "Ümummilli Lider" adlı xüsusi buraxılşımız işıq üzü görüb. Poçtumuza yazı göndərən şəxslərə bildirmək istəyirəm ki, mövzuya uyğun göndərilmiş yazılar növbəli şəkildə dərc olunacaq. Mövzu ilə bağlı gənc yazar Sevindik Nəsiboğlunun yazısının və Budaq Təhməzin şeirlərinin də yer aldığı 2023-cü ilin Oktyabr sayını diqqətinizə təqdim edirik. Buyurun, tanış olun.

## "YAZARLAR" JURNALI

### "Yazarlar" jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar "Müstəqil Yazarlar Konfederasıyası" adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar "Yazarlar dərnəyi" adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət "Yaradıcılıq Komissiyası" adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- "Yazarlar" jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



**İlqar FƏHMİ**

**“Çingiz Abdullayev – Bizim əbədi Dronqo”**

Detektiv janrının yaranması XIX əsrin sonunda yaşamış Amerika yazıçısı Edqar Alan Ponun adıyla bağlı olsa da, ümumiyyətlə dünya ədəbiyyatında detektiv, daha doğrusu, kriminal süjetlərdən bundan əvvəl də kifayət qədər istifadə olunmuşdu (hətta bəzi tənqidçilər Dostoyevskinin məşhur “cinayət və cəza” romanını da klassik detektiv hesab edirlər). Lakin orta əsrlərdə istər Avropa, istərsə də, Şərq ədəbiyyatında işlənən kriminal süjetlər daha çox macəraçılıq xarakteri daşıdığından, detektiv bir janr kimi tam formalaşa bilməmişdi. Məhz Edqar Alan Podan sonra Avropa ədəbiyyatında detektiv janrının konkret çərçivələri, formaları, qayda-qanunları formalaşmağa başlamış, sonrakı iyirmi il ərzində klassik detektiv janrı öz zirvəsinə çatmışdı. Detektiv janrının klassiklərindən sayılan Artur Konan-Doyl, Hilbert Çesterton, Aqata Kristi, Corc Simenon və s. bu kimi yazıçılar öz əsərlərində klassik detektivin bütün qaydalarını dəqiqliklə işləmiş, təcrübədən keçirmiş, janrın müxtəlif növlərini yaratmışdılar. Yalnız bundan sonra dünya ədəbiyyatında detektiv ədəbiyyat bir janr kimi qəbul olunmuşdu.

Detektiv janrının mahiyyətini düzgün anlamaq üçün bir neçə nüansı bilmək lazımdır. Bir çox hallarda istənilən kriminal süjetli əsərlər detektiv kimi təqdim olunur, janrın incəliklərindən

xəbərdar olmayan yazıçılar belə düşünürlər ki, detektiv yazmaq çox asandır, hüquq-mühafizə orqanlarının arxivlərində yığılıb qalmış “cinayət işləri”ni hər hansı kağıza köçürməklə detektiv roman yazmış olurlar. Yox, bu, çox böyük yanlışlıqdır və biz aşağıda oxuyacağınız yazımızda Çingiz Abdullayevin yaradıcılığını araşdırmaqla bərabər, ümumiyyətlə detektiv janrının başlıca xüsusiyyətlərini də açıqlamağa çalışacağıq.

Təkrar edirəm, hər kriminal süjetli əsər detektiv sayıla bilməz. Bir əsr bundan əvvəl Avropa yazıçılarının işləyib hazırladıqları klassik detektiv ənənələri yazıçıdan məntiqi və psixoloji cəhətdən zərgər dəqiqliyi ilə seçilən bir iş tələb edir. Artur Konan-Doylun, Aqata Kristinin, Corc Simenonun, Hilbert Çestertonun əsərləri məhz bu xüsusiyyətinə görə yüzlərlə başqa detektiv müəlliflərinin əsərlərindən qat-qat yüksəkdə dayanaraq dünya ədəbiyyatı tarixinə düşüb.

Yarandığı dövrlərdə detektiv janrının ilk olaraq “hermetik detektiv” növündən istifadə olunurdu. Bu cür əsərlərdə cinayət kiçik bir məkanda (mənzildə, idarədə, gəmidə, qatarda və s.) baş verir və oxucu əvvəlcədən bilir ki, cinayəti məhz bu dar məkandakı insanlardan biri törədib. Əsər boyu oxucu bütün iştirakçıların xarakteri, psixologiyası ilə tanış olur, yazıçıyla bərabər cinayətin müxtəlif versiyalarının üzərində gəzişir, növbə ilə bütün qəhrəmanlardan şübhələnir, lakin sonda məlum olur ki, cinayəti heç kimin gözləmədiyi bir adam (yaxud bir qrup adam) törədib.

Bu cür “hermetik” detektiv əsərlərin bir çox incəlikləri var ki, əgər yazıçı bunları nəzərə almasa, yazdığı əsər, həqiqətən, maraqlı klassik detektiv yox, adi, bayağı və bezdirici istintaq xronikasına çevriləcək. Hansılardır bu incəliklər?

1. *Hadisənin məkanı elə seçilməlidir ki, oxucu kənardan gələn hansısa, naməlum şəxsin bu cinayəti törədə bilməyəcəyinə əmin olsun və inansın ki, cani məhz onun tanıdığı qəhrəmanlardan biridir.*
2. *Cinayət törədilən vaxt məlum olan faktlarla, sonradan ortaya çıxan faktlar arasında müvazinət olmalıdır, faktlar və deduktiv düşüncələr bütün əsər boyu oxucuya bərabər şəkildə, hissə-hissə çatdırılmalıdır ki, oxucu əsərin hansısa yerində boşluq hiss eləməsin.*
3. *İstintaq aparılan müddətdə qəhrəmanların hamısının xarakteri açılmalı, psixologiyaları verilməlidir ki, oxucunun özü də istintaq aparan şəxslə bərabər hadisələrin gedişatında iştirak etsin, qəhrəmanlara qarşı müəyyən hissləri yaransın, öz şəxsi versiyalarını düşünə bilsin.*
4. *Əsərin sonunda cinayəti törədən, oxucunun məhz hamıdan az şübhələndiyi qəhrəman olmalıdır. Bundan savayı, istintaqı aparan şəxs canini ifşa edərkən, oxucunun bilmədiyi heç bir faktdan istifadə etməməlidir. Yəni əsərin sonunda hər şeyin üstü açılandan sonra oxucuda belə bir təəssürat yaranmalıdır ki, bu faktların hamısını mən də bilirdim, bəs necə oldu ki, mən özüm həmin düzgün nəticəni çıxara bilmədim?*

Nüans bundadır ki, yazıçı özünə lazım olan, yəni canini ifşa etmək üçün sonda istifadə edəcəyi faktları onlarla başqa lazımsız fakt içinə elə ustalıqla səpələməli, oxucunun diqqətini əsas faktlardan elə yayındırmalıdır ki, oxucu gözünün qabağında olan həqiqəti əsərin sonuna qədər görə bilməsin.

Əgər yazıçı bütün bu incəliklərə dəqiq riayət edə bilirsə, onda əsər çox maraqlı, dolğun, yüksək səviyyəli alınır, lakin əgər hər hansı bir detalın işlənməsində ifrata, yaxud təfritə yol verilərsə, əks effekt alınar.

Məsəl üçün, yazıçı həqiqəti bacarıqla gizlədə bilməsə, oxucu əsərin əvvəlində, yaxud ortasında caninin kim olduğunu anlayacaq və əsər maraqdan düşəcək. Əks halda, yəni yazıçı oxucunun diqqətini həddindən artıq azdırmağa çalışsa, oxucu onun qarşısına qoyulan külli miqdarda faktın içində itib-batacaq, çaşacaq, hər şeyi unudacaq, yenə də əsər onun üçün maraqsızlaşacaq.



Yaxud yazıçı qəhrəmanların xarakteristikasını, insanlar arasındakı münasibətlərin psixoloji təsvirini verməsə, insanı cinayətə sövq edən səbəblərin dərinliklərinə getməsə, yalnız kriminalist faktların təsviriylə kifayətlənsə, nə qədər maraqlı olsa da, bu cür əsər oxucunun mənəvi tələbatını ödəyə bilmədiyinə görə mütaliə bitəndən sonra tezliklə unudulacaq. Lakin əks proses baş verərsə, yəni yazıçı qəhrəmanların psixoloji durumuna, düşüncəsinə həddən artıq yer verib,

kriminal süjeti ikinci plana keçirərsə, onda bu əsər artıq klassik detektivlikdən çıxıb, fəlsəfi-psixoloji əsərə çevriləcək.

Yuxarıda adıçəkilən klassik detektiv ustaları məhz bu incəlikləri çox dəqiqliklə işləyə bildiklərinə görə sonrakı detektiv müəllifləri üçün örnəyə çevriliblər.

Ötən əsrin ortalarından etibarən zamanın tələbinə uyğun olaraq detektiv janrının daha bir neçə növü formalaşdı ki, bu da onun bir ədəbiyyat faktı olaraq aradan qalxmasının qarşısını aldı, çünki zamanın inkişafı elə bir sürət almağa başladı ki, artıq klassik detektiv üslubu oxuculara bir qədər darıxdırıcı, dinamikadan uzaq və hətta yorucu görünməyə başlamışdı. Məhz bu zaman Qərb detektiv yazıçılarının ikinci nəsli meydana gəldi. Bununla da detektiv janr ikinci həyatını yaşamağa başladı. Düzdür, bu, “hermetik detektiv” növünün aradan qalxmasına gətirib çıxarmadı, amma əsərlərdə dinamika artdı, hadisələr kiçik, dar məkandan çıxıb daha geniş miqyası əhatə etməyə başladı, qəhrəmanların sayı çoxaldı.

Həmin dövrlərdə Yan Fleminq elə indinin özünə qədər dəbdən düşməyən casus Ceyms Bond haqqında silsilə romanlarla “casus detektivi”nin, Erl Stenli Qardner vəkil Peri Meyson personajı ilə “məhkəmə detektivi”nin, Karter Braun hazırcavab, məzəli xəfiyyə Danni Boydun obrazını yaratmaqla “ironik, yumoristik detektiv” üslubunun əsasını qoydu, Ceyms Hedli Çeyz isə cinayətin açılmasından çox, onun həyata keçirilməsini təsvir edən, istintaq prosesilə bərabər canilərin sərgüzəştlərini də təsvir edən romanlarıyla “ekşn” üslubunu yaradanlardan biri oldu (sonuncu üslubda yazılan əsərlər, adətən cinayətin planlaşdırılıb həyata keçirilməsilə başlayır, yalnız bundan sonra istintaq tədbirləri görülür. Çeyzin romanlarının fərqli cəhəti ondadır ki, oxucu əvvəlcədən

cinayəti kimin törətdiyini bilir. Lakin canilərin hansı üsulla ələ keçəcəyi, yaxud onların aqibəti, cinayətin nəticəsi, ən əsas da dinamizm, oxucu üçün əsərin maraqlılığını axıra qədər saxlaya bilir. Ötən əsrin səksəninci illərində Çeyzin romanı əsasında Pribaltika kinematoqrafçıları tərəfindən çəkilən və o vaxtlar SSRİ-də həddən artıq məşhur olan “Mirac” filmini xatırlmaq kifayətdir).

1950-80-ci illərarası yazılan detektivlərin əvvəlkilərdən bir fərqli cəhəti də, romanların yüksək dinamikasıyla bərabər, “boevik” elementlərinin də zənginləşməsiydi. Bu dövr detektivlərinin qəhrəmanları canini, sadəcə, deduktiv düşüncələrlə axtarıb tapmırlar, lazım olanda güllə atmağı da, yumruq davasına çıxmağı da, hansısa cinayət yuvasını partlatmağı da, maşın çevirməyi də, gözəl xanımları yoldan çıxarmağı da, hətta öz məqsədlərinə çatmaq üçün lazım gələndə qanunsuz vasitələrdən istifadə etməyi də çox gözəl bacarırlar. Bu xüsusiyyətlərinə görə istər Ceyms Bond, istər Danni Boyd, istərsə də, vəkil Peri Meyson hərəkət etməkdən daha çox deduktiv düşüncələrə dalmağı sevən sələflərindən çox fərqlənirdilər. Əlbəttə ki, intellektual Şerlok Holmsun haranısa partlatmasını, zərif centlmen olan Erkül Puaronun kimisə avtomatdan dəlmə-deşik etməsini, yaxud melanxolik komissar Meqrenin hansısa cazibədar katibəni yoldan çıxarıb yatağına çəkməsini təsəvvür etmək çox çətindir, lakin zaman öz sözünü deyirdi və həmin dövrlərdə oxucular məhz bu cür detektiv qəhrəmanlarına üstünlük verirdilər. Lakin bu o demək deyildi ki, adıçəkilən yazıçıların yaratdıqları qəhrəmanlar yalnız güllə atmağı, bomba partlatmağı, qadınları yoldan çıxarmağı bacarırdılar. Yox, qətiyyən. Yan Fleminqin, Erl Stenli Qardnerin, Ceyms Hedli Çeyzin, Karter Braunun, Ed Makbeynin, Reks Stautun detektiv romanları öz dövrünün bir çox sosial problemlərini, Qərb cəmiyyətinin bütün təbəqələrində hökm

sürən ab-havanı, insanların psixologiyasını çox gözəl açmaqla bərabər, araşdırdıqları problemlərin lap kökünə qədər getməyi bacarırdılar ki, bu da onları ucuz bazar yazıçıları kimi yox, öz dövrlərinin ən bacarıqlı detektiv ustaları kimi şöhrətləndirmişdi.

Ötən əsrin səksəninci illərindən başlayaraq isə dünya detektiv ədəbiyyatı öz inkişafının üçüncü mərhələsinə qədəm qoydu ki, bu zaman yazıçılar daha çox detektivi başqa janrlarla sintez etməyə və bunun nəticəsində yeni ədəbi janrlar almağa cəhd edirdilər. Çağımıza qədər aktual olan tarixi detektiv, intellektual-kulturoloji detektiv, siyasi detektiv, mistik detektiv, fantastik detektiv janrları Umberto Eko, Orxan Pamuk, Milorad Paviç, Xaruki Murakami, Frederik Forsayt kimi yazıçıların səyi nəticəsində məhz dediyimiz dövrdə yaranıb. Və fəxrlə deyə bilərik ki, həmyerlimiz, xalq yazıçısı Çingiz Abdullayev də məhz bu yeni janrlardan birinin, yəni siyasi detektivin yaradıcılarındandır.

Baxmayaraq ki, ondan əvvəl də bəzi yazıçılar, məsələn, Frederik Forsayt, Eduard Topol və s. siyasi detektivlər qələmə almışdılar, lakin onların təsvir etdiyi hadisələr konkret bir ölkə hüdudlarında baş verirdisə, Çingiz Abdullayev cənub-şərqi Asiyadan tutmuş, Latın Amerikasınacan bütün dünyanı əhatə edən "Mavi mələklər" romanını yazmaqla dünya detektiv ədəbiyyatında yeni, "qlobal siyasi detektiv" janrının əsasını qoydu və bütün dünyada bu janrın klassiki kimi şöhrət qazandı.

**"Siyasi detektiv" ədəbi janr kimi**

İstənilən janr sənətkarın ədəbi düşüncəsi, fəlsəfəsi, ideyaları, bir sözlə, özünüifadəsi üçün formadır və bu forma nə qədər gözəl işlənsə, əsərin cazibəsini bir az da artırmış olar. Bu

baxımdan detektiv əsərlərin hansı məntiqlə işlənməsi onların oxucu kütləsi tərəfindən qəbul olunmasında böyük rol oynayır.

Detektiv janrının qlobal siyasətlə sintezində də bütün bu şərtlərə dəqiq riayət olunmalıdır. Ümumiyyətlə, bütün ədəbi janrların öz incəlikləri olduğu kimi, siyasi detektivlərin də müəyyən kriteriləri vardır. Bu üslubda yazmaq istəyən yazıçı, ilk növbədə, güclü məntiqi təfəkkürə və dünyada baş verən ictimai-siyasi proseslər barədə külli miqdarda səhih informasiyaya malik olmalıdır. Yalnız bundan sonra yazıçının bədii təxəyyülü işə düşür, zahirən hamımızın gördüyü hadisələrin görünməyən tərəflərini bizə açır. İctimai prosesləri bir aysberqə bənzətsək, biz onların yalnız cüzi bir hissəsini seyr edə bilirik və siyasi detektiv yazan yazıçı bu aysberqin görünməyən hissəsini elə təsvir etməlidir ki, oxucuda bu təsvirlərin həqiqiliyinə zərrə qədər də şübhə qalmasın. O əsərləri ən uğurlu siyasi detektiv hesab etmək olar ki, oxucu mütaliədən sonra elə bilsin ki, bütün bunlar yazıçı təxəyyülü yox, siyasi hadisələrin ən gərgin nöqtələrində fəaliyyət göstərmiş bir insanın xatirələridir. Yəni hər hansı bir siyasi detektiv başdan-başa sənədli əsər kimi qəbul olunmasa, deməli, yazıçı istədiyinə nail olmayıb. Ç.Abdullayev məhz bu sahədə uğurlar qazanıb. Minlərlə oxucu səmimi qəlbdən inanır ki, o, yazdığı bütün hadisələri öz şəxsi praktikasından götürüb: Ç.Abdullayev Qorbaçovun həyatını xilas edib; Ç.Abdullayev Rusiyada itmiş nüvə raketlərini tapıb; Ç.Abdullayev Siciliya mafiyasına ən sarsıdıcı zərbələrdən birini endirib və s və i. Bir sözlə, son iyirmi ildə dünyada baş verən, demək olar ki, bütün əhəmiyyətli siyasi hadisələr onun iştirakı olmadan ötüşməyib. Hətta doxsanıncı illərin əvvəllərində belə bir şayiə gəzirdi ki, Ç.Abdullayev adlı adam, ümumiyyətlə yoxdur, bütün bu romanları isə gizli təxəllüslə SSRİ DTK-sının yüksək vəzifəli bir

əməkdaşı yazır. Əlbəttə ki, bütün bunlar oxucunu inandıra bilməyin göstəricisi hesab oluna bilər.

Bəs, görəsən, yazıçı buna necə nail olur? Necə olur ki, minlərlə insan hamımızın gözü qarşısında baş verən hadisələrin pərdəarxasını məhz yazıçının təsvir etdiyi kimi qəbul edir? Əlbəttə ki, bunun da müəyyən üsulları var. Külli miqdarda siyasi-ictimai informasiyaya malik olan yazıçı, ilk növbədə, dünyada baş verən hansı hadisələrin geniş kütlələrin diqqətini daha çox cəlb etdiyini bilməlidir. Bundan sonra yazıçı öz qəhrəmanını bu hadisələrə elə daxil etməli, yaxud hamının tanıdığı siyasi xadimləri öz uydurduğu hadisələrə elə cəlb etməlidir ki, oxucuda zərrə qədər də şübhə yaratmasın, reallıqla uydurma arasındakı sərhəd itsin, reallığın harada bitdiyi, təxəyyülün harada başlandığı qətiyyən hiss olunmasın. Bu zaman təsvir olunan bütün hadisələr məntiqi cəhətdən o qədər dəqiq işlənməlidir ki, heç kim bu hadisələrin yazıçının təsvir etdiyi kimi baş verdiyinin mümkünsüzlüyünü sübut edə bilməsin.

Hal-hazırda siyasi detektiv tələb olunan ədəbi janr olduğundan, dünyada bu sahədə qələm sınayanların sayı çoxdur, lakin bu tipli bir çox əsərlər heç də istənilən təsirə malik olmur, bir çox yazıçılar diqqətli oxucunu öz yalanına inandırmağa çətinlik çəkir. Bu cür əsərlərin uğursuzluğunun səbəbi hadisələrin təsvirində ya həddən artıq dəqiqlikdir ki, bu da onları bədii əsərdən çox, sadəcə, sənədli romanlara bənzədir, ya da yazıçının təxəyyülünün ifrata varmasıdır ki, bu zaman oxucu əsəri, sadəcə, uydurma kimi qəbul edir.

Ç.Abdullayevin siyasi detektivləri bu baxımdan bütün dünyada örnək kimi qəbul edilir və bir çoxları üçün etalon xarakteri daşıyır. Onun “Mavi mələklər”, “İnsan ovu”, “Qanın üç rəngi”,

"Əfsanə hüququ" və s. romanları çağdaş siyasi detektiv janrının zirvələridir. Gerçəkliklə fantaziyanın məntiqi şəkildə uzlaşması və bir-birini tamamlaması, dünyada baş verən ictimai-siyasi hadisələr barədə səhih informasiyalar, bir çox hallarda öz təsdiqini tapan siyasi proqnozlar, hamının tanıdığı dövlət xadimlərinin təsvirində heç bir kompleksə qapılmamaq – bütün bunlar Ç.Abdullayevin siyasi detektivlərinin üstün cəhətlərindəndir. Onun detektivlərində artıq heç nə yoxdur, əsərin ümumi ideyasının açılmasına xidmət edən bütün kriminalistik faktlar, siyasi informasiyalar, obrazların psixoloji xarakteristikaları deduktiv düşüncənin istiqaməti üzrə elə virtouzcasına yerləşdirilir ki, hətta ilk baxışdan əhəmiyyətsiz görünən kiçik bir faktı, xırda bir detalı çıxarsan, deduktiv düşüncələrin zənciri qırılacaq, əsərin bütün strukturu bir göz qırpımında dağılacaq.

Ç.Abdullayevin siyasi detektivlərinin özünəməxsus bir cəhəti var: qlobal siyasi hadisələrin konkret insan talelərində əks olunması, dünya əhəmiyyətli siyasi oyunlardan adi bəşəri duyğulara virtouzcasına keçidlər. Bəzən əhəmiyyətli siyasi bir hadisənin ən gərgin məqamında yazıçı hiss olunmadan oxucunu qlobal siyasətdən çıxarıb, qəhrəmanların daxili dünyasına salır, onların keçirdiyi hissləri, psixoloji sarsıntıları, fikir və düşüncələri təsvir edir. İnsan faktoru Ç.Abdullayev yaradıcılığında böyük önəm daşıyır, konkret bir insan taleyi, bəzən qlobal əhəmiyyətli siyasi hadisələrdən daha çox qabardılır, nəzərə çarpdırılır. Yazıçı demək istəyir ki, hər hansı bir siyasi hadisə nə qədər əhəmiyyətli, mühüm olsa da, insan faktoru ondan qat-qat əhəmiyyətlidir, konkret insanların taleyini sındırmaqla, hansısa, absurd ümumbəşəri səadətə, xoşbəxtliyə nail olmaq mümkün deyil, heç bir qlobal əhəmiyyətə malik planlar, hətta ən "xırda" adamların da taleyini nəzərə almadan həyata keçirilə bilməz.

## Çingiz Abdullayevin qəhrəmanları

Ç.Abdullayev dünya ədəbiyyatında siyasi detektivin banilərindən sayılsa da, detektivin təkcə bu janrında yox, mistik və fantastik detektiv janrlarını çıxmaq şərtiylə bütün detektiv üslublarında eyni dərəcədə uğurlu əsərlər yazıb. Yazıçının qələminin məhsulu olan “Cəhənnəmdən keçid”, “Geri dönməmək”, “Öz dünyanı yarat” kimi ekşnlər, “İnanılmaz qətl”, “Atlantika üzərində ölüm”, “Xammurapinin məcəlləsi”, “Unudulmuş yuxu”, “Yalnız özününkülər” kimi klassik hermetik, “Professionalların oyunları”, “Professionalların qaydaları”, “Günəş altında zülmət” kimi casus, “Döyüşçünün yolu” kimi kulturoloji, “Məhkumların cənnəti” kimi psixoloji, “Eramızın əvvəlindəki sui-qəsd” kimi tarixi detektivlər və başqa rəngarəng üslublu detektiv romanlar göstərir ki, Ç.Abdullayev bu janrın bütün növlərində öz sələflərindən heç bir cəhətdən geri qalmayan əsərlər yaratmağa qadirdir. Buna görə də onun yaradıcılığını araşdırarkən, yalnız siyasi detektivlərlə kifayətlənmək düzgün olmaz.

Yazıçının qələmindən çıxan bədii obrazların şərhinə keçməzdən əvvəl bir nüansı da qeyd etmək yerinə düşər. Son zamanlar bütün incəsənət sahələrində olduğu kimi, detektiv ədəbiyyatında da heç bir bədii tələblərə cavab verməyən, janrın incəliklərindən uzaq olan, oxucunu yalnız əyləndirmək məqsədi daşıyan əsərlər, ələlxüsus, romanlar çoxalıb və bir çox hallarda geniş oxucu kütləsi yaxşını pisdən seçməkdə çətinlik çəkir, kitab bazarını zibilləyən belə əsərləri də əsl detektiv kimi qəbul edir. Çox sevindirici haldır ki, Ç.Abdullayev bütün dünya üzrə barmaqla sayılan bir neçə yazıçıdan biridir ki, detektivin hansı janrında yazmasından asılı olmayaraq yuxarıda haqqında danışdığımız bütün klassik qayda-qanunlara ciddi-cəhdlə riayət edir, mütəxəssislərin diliylə

desək, “janrın saflığını, təmizliyini saxlayır, xalturaya qətiyyən yol vermir”. Məhz bu mənada, bütün dünyada detektiv ədəbiyyatı üzrə mütəxəssislər onu klassik detektiv ənənələrinin son daşıyıcılarından bir hesab edirlər.

Ç.Abdullayevin adı çəkilən kimi onun yaratdığı obrazlardan ilk olaraq Dronqo yada düşür. Və bu adı ilk dəfə eşidənlərin hamısında təbii bir sual yaranır: bu nə addır, mənası nədir? Həqiqətən də, Dronqo insan qulağının öyrəşmədiyi adlardandır və nahaq yerə bir çoxları müxtəlif lüğətləri eşələyib bunun hansı xarici dilə aid olduğunu öyrənməyə çalışırlar. Təbii ki, bunun heç bir nəticəsi olmayıb, çünki Dronqo hər hansı bir xalqa məxsus insan adı deyil. Dronqo quş adıdır. Ç.Abdullayev ilk romanı olan “Mavi mələklər”də öz qəhrəmanının dilindən bu ləqəbin mənasını izah edir – Dronqo təbiətdə çox az rast gəlinən kiçik bir quşun adıdır. Bu quşun bir fərqli cəhəti də başqa quşların səsini böyük müvəffəqiyyətlə imitasiya etməyi bacarmasındadır. Bəli, bəli, o, təbiətin yaratdığı xırda, lakin dahi imitatordur. Və Ç.Abdullayevin diqqətini çəkən də, yəqin ki, onun məhz bu xüsusiyyəti olub. Professional kəşfiyyatçı, əvəzolunmaz ekspert və səhih deduktiv düşüncə tərzinə malik olan Dronqonun müvəffəqiyyət qazanmasının əsas amili başqa insanların fikir və düşüncələrini öz içində düzgün imitasiya etməklə onların niyyət və məqsədlərini düzgün anlamasıdır. Təbii ki, bu cür keyfiyyətlərə sahib olan ədəbi qəhrəman üçün belə bir ləqəb düşünmək çox uğurlu bir ədəbi tapıntı hesab oluna bilər. Əlbəttə, Ç.Abdullayev öz qəhrəmanına ləqəb kimi adi bir insan adı da fikirləşə bilərdi, lakin yazıçı öz qəhrəmanının adını heç bir konkret millətə aid etməməklə, onun bütün dünyanın vətəndaşı olduğunu bir az da qabarıq nəzərə çatdırmışdı ki, bu da qlobal tarixi detektiv janrının tələblərilə tam üst-üstə düşür. Beləliklə, Dronqonun nə adı, nə də fəaliyyəti heç bir sərhədlə məhdudlaşmır, bütün dünyanı

əhatə edir. Dronqo barədə ilk romanda onun yalnız hansısa cənub ölkəsindən olduğu barədə dumanlı məlumatlar verilir. Yalnız son romanlarında Ç.Abdullayev açıq şəkildə bildirir ki, Dronqo əslən bakılıdır, valideynləri hələ də bu şəhərdə yaşayır, hətta onun Bakıdakı ünvanını da yazır – Xaqani 25 (əlbəttə, çoxları bilir ki, bu ünvanda Azərbaycan Yazıçılar Birliyi yerləşir və maraqlısı odur ki, bura mütəmadi olaraq Dronqonun ünvanına yazılmış məktublar gəlir).

Məncə, bu da qabaqcadan düşünülmüş və oxucuların psixologiyasına təsir edən bir addımdır. Əgər Ç.Abdullayev elə ilk romanlarından yazsaydı ki, onun qəhrəmanı azərbaycanlıdır, adı da, tutalım, Məmmədquludur, yəqin ki, dünya oxucuları bunu birmənalı qarşılamayacaqdı. Geridə qalmış sayılan hansısa, uzaq müsəlman ölkəsinin nümayəndəsinin qlobal siyasi problemlərin həllində belə yaxından iştirak etməsinə yəqin ki, o vaxt avropalılar inanmazdı və Ç.Abdullayevin əsərləri istənilən uğuru qazanmazdı (hətta Moskvada ilk romanları nəşr edilən vaxt Ç.Abdullayevə dəfələrlə təklif etmişdilər ki, özünə nəsə qərblilərə xas bir ədəbi təxəllüs götürsün, yoxsa, bu sırf şərqli adı ilə qlobal tarixi detektivlər heç üst-üstə düşmür. Lakin yazıçı, təbii ki, bu şərti qəbul etməmişdi). Onun üçün də yazıçı başqa yolla getdi, öz qəhrəmanına rəmzi bir ləqəb düşünməklə oxucuların marağını bir qədər də qıcıqlandırdı və yalnız öz qəhrəmanını oxucular sevdirəndən sonra onun kimliyini, hansı millətə mənsub olduğunu açıqlamağa başladı. Beləliklə, bütün dünyanın siyasi problemlərinin həllində yaxından iştirak edən bir azərbaycanlı ekspert-analitik obrazı yaranmış oldu. Onu da qeyd edim ki, Ç.Abdullayev Dronqonun hansı millətin nümayəndəsi olduğunu açıqlasa da, onun konkret olaraq adını, soyadını hələ də gizli saxlayır. Yəqin ki, yazıçının sadiq oxucuları nə vaxtsa, bu barədə də müəyyən informasiyalar alacaqlar.

Dronqo obrazının milyonlarla oxucu tərəfindən sevilməsinin bir səbəbi də öz sələfi olan detektiv qəhrəmanlarının bir çox müsbət keyfiyyətlərini özündə birləşdirməsidir. Şerlok Holmsun qüsursuz detuktiv düşüncəsi, Komissar Meqrenin melanxolizmi, Erkül Puaronun zərif centlmentliyi, Danni Boydun ironiyası, Peri Meysonun cazibədarlığı, Ceyms Bondun cəsarəti – Ç.Abdullayev öz qəhrəmanını yaradanda ifrata varmamaq prinsipiylə bütün bu keyfiyyətlərdən çox gözəl şəkildə istifadə etməyi bacarıb. Lakin bu o demək deyil ki, Dronqo obrazında özünəməxsus heç nə yoxdur, bu, sadəcə, qurama bir obrazdır. Bəli, Dronqo bütün adıçəkilən qəhrəmanlara oxşayır, amma eyni zamanda onların heç birinə oxşamır. Bütün dediyimiz keyfiyyətlər Dronqonun psixoloji obrazında yalnız xırda cizgilərdir və onu oxuculara sevdirməkdən ötrü yardımçı rol oynayır. Bu personajın ən maraqlı keyfiyyəti isə ümumi ilə xüsusini, qlobal ilə məhəlli psixoloji məfhumları özündə üzvi şəkildə birləşdirməsidir. Bəli, Dronqo bütün dünyanın vətəndaşıdır, amma onun eyni zamanda coğrafi baxımdan kiçik də olsa, həmişə ürəyinin başında gəzdirdiyi, xəyalən heç vaxt ayrılmadığı bir vətəni də var – Azərbaycan. Romanlarının birində Ç.Abdullayev Dronqo haqqında xarakterik olan belə bir cümlə işlədir: “Onun özü Moskvada, həyat yoldaşı Romada, valideynləri isə Bakıda yaşayır.” Qütbləşməyə, radikallığa öyrəşdiyimiz bir zamanda yazıçı sübut etməyə çalışır ki, qloballaşma ilə milli adət-ənənə, beynəlmiləlçiliklə millətçilik, keçmişlə gələcək heç də bir-birinə zidd məfhumlar deyil, ağıllı insan bunların hamısını öz içində ideal şəkildə birləşdirə bilər, bunun üçün isə sadəcə sevgi hissi lazımdır, nifrətlə heç nəyi həll etmək olmaz, bir qütbə çəkilmək heç də yaxşı nəticələr vermir. İnsan öz keçmişiylə bərabər gələcəyini də, vətəniylə bərabər bütün dünyanı da, milli-mədəni irsiylə bərabər bütün dünya mədəniyyətini də eyni cür sevməlidir. Əgər insanlar öz daxilindəki sevgi hissini bu cür bərabər şəkildə bölə bilsələr,

real həyatda rastlaşdığımız bir çox problemlər öz həllini asanlıqla tapmış olar.

Dronqo üçün xarakterik olan və bütün romanlar boyu zaman-zaman özünü büruzə verən hisslərdən biri də acı bir nostalji duyğusudur. Düzdü, Azərbaycanda bir çoxları bunu tamam başqa cür yozur, Ç.Abdullayevin bir vaxt "vahid vətənimiz" olan SSRİ-nin dağılmasına gecə-gündüz təəssüfləndiyini, ölkəmizin müstəqilliyini haradasa, mənfi qarşıladığını yazırlar. Əlbəttə ki, bütün bunlar səthi müşahidələrin, ilkin təəssüratların nəticəsidir. Dronqo obrazının mahiyyətinə vardıqda isə açıq-aşkar hiss olunur ki, yazıçını ən çox təəssüfləndirən heç də, sadəcə, hansısa, bir imperiyanın məhvi deyil. Sadəcə, müəyyən ideyalar dünyasında yaşayan və öz xalqının xoşbəxtliyi naminə bütün varlığından, hətta lazım gələrsə, öz həyatından belə keçməyə hazır olan, məhz belə fədakarlıq ruhunda böyüyən bir insan dünyanın indiki ideyasızlıq, mənəvi boşluq vəziyyətində yaşamağa çətinlik çəkir. İrəlidə, sadəcə, məchul bir qaranlıqdır, onun üçün də Dronqonun, eləcə də eyni hisslərlə yaşayan minlərlə insanın öz daxili-mənəvi tələbatını ödəmək üçün keçmişə boylanmaqdan başqa əlacı qalmayıb. Beləliklə, qeyri-şüuri olaraq keçmiş ideallaşdırılır, sovet dövrünün mənfi keyfiyyətləri yavaş-yavaş yaddaşdan silinir, müsbət keyfiyyətləri isə bir az da, qabarıq nəzərə çarpmağa başlayır. Əlbəttə ki, Dronqo bəzi fanatik kommunistlər kimi gülləni başına çaxıb özünü öldürmür: yenə də yaşayır; öz sahəsi üzrə fəaliyyət göstərir; bəzən, hətta özünü təhlükə qarşısında qoyur. Onun ailəsi də var. Lakin bütün bu işləri hansısa ali ideyalar naminə yox, sadəcə, başqa cür yaşaya bilmədiyinə görə edir. O, zaman keçdikcə melanxolikləşir, bədbinləşir, lakin bütün bunlara baxmayaraq, Ç.Abdullayevin səyi nəticəsində yenə də əvvəlki cazibədarlığını saxlayır, yenə də minlərlə oxucunu özünə valeh edə bilir. Ümumiyyətlə,

Dronqo o qədər geniş, dolğun bir obrazdır ki, onun haqqında ayrıca bir araşdırma yazmaq da olar, lakin bu yazının həcmi imkan vermədiyinə görə, dediklərimlə kifayətlənmək istəyirəm.

Ç.Abdullayev Dronqodan başqa çoxlu sayda maraqlı ədəbi personajlar yaradıb. Bunların içində ən çox nəzərə çarpanlar – “Qadın qisası”, “Qadınlar sükunəti saxlayır” və daha bir neçə detektiv romanın qəhrəmanı olan qadın-xəfiyyə Marina Çernışova və “Mənim gözəl alibim”, “Saturnun etirafı”, “Üçüncü variant” romanlarının qəhrəmanı, Əfqanıstan müharibəsində bir qolunu itirmiş əlil qatildir.

Son dövrlərdə Rusiyada Aleksandra Marinina, Tatyana Polyakova, Marina Daşkova kimi qadın detektiv yazıçıları meydana çıxsalar da, Marina Çernışova obrazıyla yaxından tanış olanda görürsən ki, Ç.Abdullayev xəfiyyə-qadın psixologiyasını adıçəkilən qadın yazıçılardan daha yaxşı aça bilib, belə təhlükəli bir peşə seçmiş qadının daxili yaşantılarını bədii mətnə daha ustalıqla gətirib.

Təkqol qatil obrazını yazıçı Sovet rejiminin bizə qoyduğu miras kimi təqdim edir və məncə, o, Dronqonun müəyyən mənada əksi olan obrazdır. Bəli, minlərlə insan bu recimin ideologiyası uğrunda fədakarlıq etdilər, amma indi onlar artıq heç kimə lazım deyillər. Kimlərsə Dronqo kimi yaşamağa nail olsalar da, bəziləri bunu bacarmadı, əvəzində onları lazımsız bir alət kimi sındırıb bir kənara atan cəmiyyətə yönələn nifrəti cinayət aləminə gətirdilər. Ç.Abdullayevin qəhrəmanı adi muzdlu qatil deyil, o hər bir hərəkətiylə, kimi öldürməsindən asılı olmayaraq sadəcə daxilindəki intiqam tələbatını ödəməyə çalışır. Lakin yenə də təskinlik tapmır, zaman keçdikcə qəlbindəki qəzəb hissi bir zamanlar nümunəvi sovet əsgəri olan bu əlil insanı

vəhşi bir heyvana çevirir – o öldürməkdən həzz almağa başlayır, öz həyatını bunsuz təsəvvür etmir.

Sosial kataklizmlər cəmiyyəti mişar kimi kəsib doğradığı zaman belə insanlar ətrafa səpələnən lazımsız taxta yonqarına bənzəyir. Sadəcə, bir kibrit atəşi kifayətdir ki, onlar böyük bir yanğının başlanmasına təkan versin. Bütün bunlara baxmayaraq, yazıçı yenə də belə insanlara haqq qazandırmır, sadəcə, onları başa düşməyə və onları bu vəziyyətə salan tarixi şəraitin təkrarlanmaması üçün əlindən gələni etməyə çalışır.

**Yekun**

Detektiv janrının demək olar ki, bütün imkanlarından istifadə etməsinə, janrın bütün istiqamətlərində maraqlı əsərlər yazmasına baxmayaraq, son vaxtlar Ç.Abdullayevin yaradıcılğında klassik hermetik detektivlərə qayıdış tendensiyası müşahidə olunur. “Yalnız özününkülər”, “Hammurapinin məcəlləsi”, “Yol verilən günahkarlıq” və son vaxtlar yazdığı daha bir neçə romanda yazıçı yenə də kiçik məkanda baş verən cinayətləri təsvir edir. Əlbəttə, bunlar nə qədər hermetik olsalar da, bir çox xüsusiyyətlərinə görə yüz il əvvəl yazılmış klassik detektivlərdən fərqlənirlər. Lakin fakt faktlığında qalır: Ç.Abdullayev, zənnimcə, yaradıcılığının birinci dövrəsini başa vurub, başlanğıc nöqtəyə qayıdır. Yəqin ki, o, bir azdan yaradıcılığının həm forma, həm də məzmun baxımından əvvəlkindən fərqlənən ikinci dövrəsinə qədəm qoyacaq, yenə də onlarla maraqlı detektiv əsərlərlə dünyanın bütün ölkələrindəki oxucularını sevindirəcək.

Ümumiyyətlə, Ç.Abdullayevin əsərlərini ayrı-ayrılıqda təhlil etməklə onu anlamaq çətin olar. Onun yaradıcılığına vahid bir orqanizm kimi yanaşmaq lazımdır. Təsadüfi deyil ki, yazıçının özü də romanlarını "Kriminal komediya" tsikli adı altında birləşdirib.

***İlkin mənbə:*** ***/edebiyyatqazeti.az/***



**Sevindik NƏSİBOĞLU**

## HEYDƏR ƏLİYEV 100

## QADINLIĞIN VƏ ANALIĞIN ƏN ALİ TİMSALI

Ulu Öndərimizin hər zaman dayağı, dəstəyi olmuş, həyatda onun üçün ən sadiq insan olmuş ömür-gün yoldaşı, görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyeva haqqında Azərbaycan-türk qadını, türk anası hər zaman hər sahədə müsbət mənada bütün dünya qadınları arasında öz fərqliliyini, ağırlığını, sanballılığını, ucalığını nümayiş etdirmiş və seçilənlərdən olmağı bacarmışdır. “Qadınlıq” sözü, “analıq” sözü hər zaman Azərbaycan qızlarının, gəlinlərinin. qadınlarının timsalında daha da dəyərə, qiymətə minmiş, daha gözəl və daha qürurlu bir şəkildə səslənmişdir. Azərbaycan qadınları öz xalqını, öz ölkəsini bineyi-qədimdən çox gözəl və layiqli şəkildə təmsil edərək bu qadınlıq, analıq adını zirvələrə qaldırmışlar. Bunun nümunələrini keçmişimizdən görmüşük, indi görürük və gələcəkdə də görəcəyimizə şübhə etmirik. Ataların misalında deyildiyi kimi “ot kökü üstə bitər”. Bizim xanım-xatın qadınlarımız öz ömür-gün yoldaşlarına ömür boyu sadiq qalmış, dəstək olmuş, ən yaxşı anında onunla sevinmiş,

ən pis anında onları tərk etməmiş, onların ömür boyu yanında olmuş, səsinə səs vermişdir.



Azərbaycan qadını, Azərbaycan anası özünün zinəti olan əxlaqından və imanından heç bir zaman ayrılmamış, bütün ömürünü düzlük içində, haqq-ədalət, ana, qadın isməti, abırı, həyası içərisində yaşamışdır. Dünyanın bir çox yerindən Azərbaycanın tarixini öyrənən tədqiqatçılar haqlı olaraq heyrətlənir və belə bir sual soruşurlar: “Azərbaycan qadınları dünya qadınlığı içərisində necə bu qədər böyük nüfuza, sevgiyə, hörmətə və diqqətə sahib ola biliblər?”. Bu, əslində cavabı elə də çətin olmayan bir sualdır. Bunun cavabını dünya xəlq olandan bu günə qədər öz fəaliyyətlərini davam etdirən xanımlarımızın misalında, ər igidlərinə hər zaman dayaq olan Tomris xatunun, Sara xatunun, Koroğlunun ömür-gün yoldaşı

Nigarın, Qaçaq Nəbinin həyat yoldaşı Həcərin və adlarını bildiyimiz və ya bilmədiyimiz neçə-neçə Azərbaycan xanımlarının timsalında, onların həyatı ilə tanış olaraq, öyrənərək tapa bilərlər. Bir də ən əsası bir şəxsiyyətin, fenomenin və böyük insanın xanımı timsalında… Xalqımızın Ulu Öndəri olan Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloqumuz, akademik Zərifə xanım Əliyevanın timsalında.



İnsanlar sevgi, məhəbbət haqqında fikirləşəndə bu qənaətə gəlirlər ki, əsl sevgi gərək odlardan, alovlardan keçsin, bir çox qət olunması mümkünsüz olan zirvələri fəth etsin, maneələri, sədləri aşsın və sonda sonsuz, əvəzsiz, şirin vüsala yetişsin. Onda həmin sevgi əsl sevgidir və o sevgi nəinki bir ömür boyu, hətta bir dünya boyu yaşayacaq, yaşadılacaqdır. O sevgi dünyanın ən saf, təmiz məfhumudur və heç bir zaman təmizliyini, saflığını itirməyəcəkdir. Belə sevgilər dünyada az-az, demək olar ki, çox nadir hallarda olur, meydana gəlir. Bir

fidan kimi qəlblərdə yetişən o sevgi gün gələndə böyük, uca, ən güclü qasırğalara və fırtınalara davamlı olan çinar ağacına çevrilir. O çinarın neçə-neçə budaqları, qolları olur. O budaqlar, o qollar əsl sevgidən yaranmış sədaqət, nəciblik, böyüklük timsallı sevgilərdir. Mən Ulu Öndərimiz Heydər Əliyevlə onun ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın sevgisini şəksiz və şübhəsiz olaraq əsl sevgi adlandırıram. Tam mənasında inanıram ki, bu sözümü təsdiq edən çoxlu təkzibedilməz sübutlar var. Ulu Öndərimizin Zərifə xanımla ömrünü birləşdirmək yolunda keçdiyi çoxlu maneələr, getdiyi yollarda olan burulğanlar, tufanlar, fırtınalar bunun ən böyük misalıdır. XX əsrin 50-ci illərində Azərbaycanın siyasi həyatında baş verən o qanlı-qadalı hadisələrlə dolu günlər buna misaldır. Elə o əsl sevgi fidanını böyüdüb, bəsləyib uca və ulu bir çinar edən də budur. Əsl sevgi ağacı sudan, havadan yox, maneələrdən, tufanlardan, fırtınalardan qidalanır və bu səviyyəyə çataraq aliləşir, müqəddəsləşir. O ulu çinar ağacı sevgidən güc aldığı üçün ən böyük fəlakətlərdə yerindən bir azca da olsa tərpənmir belə. Hətta fırtınaları, tufanları titrədir, yurdları, yerləri viran qoyan sellərin özünün önünə sipər olur, onu dayandırır, səmtini dəyişir, dağıdıcı havasını alır. Bu ali sevgini, məhəbbəti belə vəziyyətə gətirən nədir? Qorxmazlıq, sadiqlik, səbirlilik, dözümlülük, təmkinlilik… Ulu Öndərimizin gələcək sevgilərə bir ilham xarakteri daşıyan sevgisi belə başladı, davam etdi və özünün ən böyük zirvəsinə, kuliminasiya nöqtəsinə belə çatdı.

Zərifə xanım xalqımızın böyük alimi, elm və səhiyyə sahəsində tanınmış xadim, Azərbaycanı bütün Sovet məkanında, o vaxtkı sosialist ölkələrində tanıdan, sevdirən böyük bir şəxsiyyət idi. Ulu Öndərimiz siyasi uzaqgörənlik, idarəçilik qabiliyyəti baxımından, Zərifə xanım isə tibb və elm sahəsində fəaliyyəti baxımından Azərbaycanın nə qədər qüdrətli, əzəmətli və zəngin bir ölkə olduğunu, demək olar ki, bütün dünyaya

çatdırmışdı. Görkəmli oftalmoloqumuz Zərifə xanım Tomrisin, Sara xatunun, Nigarın, Həcərin SSRİ dönəmində – o qanlı-qadalı illərdə ən böyük və layiqli davamçısı olaraq fəaliyyət göstərirdi. Azərbaycanın əməkdar elm xadimi kimi ali və şərəfli ada layiq görülmüş Zərifə xanım həm də oftalmologiya sahəsində müəllifi olduğu kitablarla necə təhsilli, təcrübəli və bacarıqlı oftalmoloq olduğunu göstərirdi. SSRİ səviyyəsində qazandığı ali məqam, şöhrət və yüksək dərəcədə olan hörmətin nəticəsi olaraq Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin üzvü seçilmişdi. 1981-ci ildə Sovet məkanında SSRİ Tibb Elmlər Akademiyasının M.İ. Averbax adına Mükafatına layiq görülmüş ilk qadın olması onun nəinki Azərbaycan qadınını, həm də Şərq qadınını layiqincə təmsil etməsindən xəbər verirdi.

Zərifə xanım Ulu Öndərimizə layiq bir xanım və ömür-gün yoldaşı idi. Onunla tanış olduğu ilk gündən vəfat etdiyi günə qədər ona olan sadiqliyi, əbədi və dönməz sevgisi, hörməti, diqqəti ilə bütün xanımlara örnək idi. Zərifə xanım sadiq həyat yoldaşı olduğu kimi mehriban, qayğıkeş, fədakar bir ana idi. O, Ulu Öndərimizə iki layiqli övlad – Sevil xanımı və hörmətli cənab Prezidentimiz İlham Əliyevi böyütmüş, vəfat etdiyi günə qədər onları gözü kimi qorumuş, canından da artıq sevib dəyər vermişdi. Zərifə xanımın Azərbaycan xalqına İlham Əliyev fenomeni kimi əsrin qəhrəmanı sayılacaq dərəcədə ali, müzəffər və böyük bir şəxsiyyət yetişdirməsi, bu xalqa, bu millətə nə dərəcədə böyük fədakarlıqlar etməsi və xeyir işlər görməsi faktı danılmazdır.

Qeyd edilənlərlə bərabər Zərifə xanım Əliyeva həm də hikmətli, şəfqətli və yüksək dünyagörüşlü bir həkim idi. Bunun sübutunu onun müəlliflik etdiyi “Yüksək əqidə” kitabında tapmaq olar, orada deyilir:

“Ölkə, cəmiyyət nə qədər inkişaf etmiş olursa, onun insanları da, mənəvi cəhəti də, humanistliyi də yüksək olur, eyni zamanda həkimin mənəviyyatı da, insanpərvərliyi də diqqəti cəlb edir.

Həkim çox səbirli olmalıdır. O, xəstənin daxili aləminə girib onu başa düşməsi üçün “Şəhrizadın uzun-uzadı nağılı”nı dinləməyi bacarmalıdır. İnsanın və xüsusilə xəstənin daxili aləmi də onun orqanizmi kimi mürəkkəbdir.

Vicdan – bizim əsas hakimimizdir.” və s.

Yuxarıdakı sitatlardan da göründüyü kimi Zərifə xanım vicdanlı, humanist bir həkim, bir insan olaraq təkcə xəstələrinin yox, öz ölkəsinin, cəmiyyətinin, digər ölkə və cəmiyyətlərin, bir sözlə, bütün dünyanın xeyrini istəyir, bunun üçün çalışır və bütün ömrünü, həyatını bunun üçün sərf edirdi. Onun sədaqəti, sevgisi təkcə Ulu Öndərimizə, övladlarına, gözəl ailəsinə deyil, eyni zamanda doğma xalqına, ölkəsinə və elə bütün dünyaya idi.

Zərifə xanımın sevgisində o, vəfat edəndən sonra da ayrılıq baş vermədi. Oxucu haqlı olaraq soruşa bilər ki, axı Zərifə xanım 1985-ci ildə amansız xəstəlikdən dünyasını dəyişdi, bəs onlar ayrılmış olmadılar?! Xeyr, onlar ayrılmış olmadılar. Onlar heç bir zaman ayrılmadılar. Ulu Öndərimiz heç bir zaman onu unutmadı.



Məzarını ziyarət edərkən əlini Zərifə xanımın qəbirüstü abidəsinə qoyaraq fikrə getməsi, dəqiqələrcə onun abidəsinə tamaşa etməsi, tədbirdə “Tut ağacı” mahnısını dinləyərkən kövrəlməsi onun Zərifə xanımı nə qədər böyük və sarsılmaz məhəbbətlə sevdiyini göstərirdi. Rejissor Vaqif Mustafayevin çəkdiyi “Əsl məhəbbət haqqında” adlı filmə baxarkən biz Ulu

Öndərimizlə Zərifə xanımın böyük sevgisinin bir daha şahidi oluruq. Zərifə xanım vəfat etsə də, bütün varlığı ilə Ulu Öndərimizin və onu sevənlərin qəlbinə köçdü, orada həyatını davam etdirdi və indi də həyatına davam edir. Zərifə xanım ölməyib, o, Ulu Öndərimizə duyduğu sevgi qədər əbədidir, onu sevənlərin qəlbində ölməzliyini qoruyub saxlayır və saxlayacaqdır.

*18.09.2023.*



**Zaur USTAC**

## TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR
## ƏLLİ SƏKKİZİNCİ YAZI

*(Məmməd Mərzilinin "Şəhid qardaşlar" kitabı haqqında)*

**Salam olsun, çox dəyərli oxucum. Uca Yaradana şükürlər olsun! Bizə qarşı çox səxavətlidir. Sizinlə hər yeni görüşə gələndə söhbətə başlamazdan əvvəl bu şükrü-sənanı qeyd etməyi özümə borc bilirəm. Hər yaşadığımız an üçün şükürlər olsun... Min şükür...**

Bu dəfəki söhbətimizin mövzusu hərflər, sözlər, kitablar silsiləsindən olan, müasir dövrümüzdə vacib, xüsusi diqqət və qayğı tələb edən gözlərimiz önündə yaranan, yazılan tarixdir. O tarix ki, şəhidlərimizin qanı ilə yazılır. Bəli, məhz yazılır. 9 sentyabr 2023-cü il tarixində, gecədən xeyli keçmiş sol ayağımda dizdən aşağı şiddətlə gicişən hələ 90-cı illərdə aldığım güllə yarasının yerini iş (yazı) masamın artıq sürtülməkdən cilalanmış ayağına sürtə-sürtə bu sətirləri qələmə alarkən Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (1995-1999) eyni fakültədə birlikdə təhsil aldığım kursant yoldaşım hal-hazırda ehtiyatda olan qazi polkovik-leytenant Elmar Hüseyov hərbi ekspert kimi ötən gün ərzində şərti cəbhə xəttində baş vermiş hadisələrə ARB-24 kanalında münasibət bildirir…

Tarix yazılmaqda davam edir. Artıq xeyli müddətdir şüarımıza çevrilən "tərəfsiz ədəbiyyat tarixdir" prizmasından bu olduqca zəngin yazılar dünyasına baxdıqda diqqəti cəlb edən, səhifələrində çoxumuzun şahidi olduğu real tarixi yaşadan gələcək nəsillər üçün faydalı olacaq əsərlərlə rastlaşmaq mümkündür. Bu qəbildən olan əvvəlki yazılarımdan birində Əli bəy Azərinin "Hərbi Zəngilan" adlı səlnaməsindən söhbət açmışam (sonda bu məsələyə bir daha qayıdacağam). İndi isə hal-hazırda şərti cəbhə xəttində baş verənləri dinləyə-dinləyə artıq bir neçə dəfə gözdən keçirdiyim çapa hazırladığımız Məmməd Mərzilinin "Şəhid qardaşlar" kitabı üçün ön söz kimi nəzərdə tutulmuş bu yazını yazmağa çalışıram. Məmməd Mərzilinin yazdığı əsər barədə söhbətə keçməzdən əvvəl onun özünü yüngülvari tanımaqda fayda var düşüncəsi ilə onu sizə təqdim etmək istəyirəm.

Mərzili Ağdamın ən böyük və məlum münaqişənin ilk günlərindən daim diqqət mərkəzində olan, adı tez-tez hallanan kəndlərindən biridir. Onu qeyd edim ki, Mərzili həm də mənim böyüyüb boya-başa çatdığım Yusifcanlı kəndi ilə qonşu olan kənddir. Bu kəndlərin adlarını təkcə Zaur Ustacın və Məmməd Mərzilinin yaşadığı kəndlər olduğuna görə qeyd etmirəm. Bu kəndlərin adlarını həm də ona görə qeyd edirəm ki, oxucuya yaxşı tanışdır. Ötən 30 il ərzində ən azı gündə bir dəfə ya mətbuatda, ya televiziyada, ya da radioda mütləq "...Ağdam rayonun Mərzili, Yusifcanlı kəndləri..." ifadəsi ilə rastlaşıb... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, məlum 30 ilə qədər ötən 5 il ərzində Mərziliyə düşməyib üstündən keçən mərmilər gəlib Yusifcanlıya düşürdü... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, xeyiri-şəri bir olan sakinləri bir-birlərini yaxşı tanıyırdılar... Bu kəndlərin adlarını ona görə qeyd edirəm ki, eyni gündə (1993-cü ilin 12 iyunu) eyni taleyi yaşamışdır... Bu adları ona görə qeyd edirəm ki, o illərdə, o kədlərdə, o günləri yaşamış Zaur Ustac və Məmməd Mərzili kimi digər yüzlərlə yurdsevər vətən övladlarının deməyə, yazmağa, paylaşmağa sözü çoxdur... Onu qeyd edim ki,

Məmməd Mərzilinin eyni adlı hərbi hissənin (tabor) adı ilə adlandırdığı “845”-i də səlnaməçilik baxımından dəyərli kitabdır. “845”-lər artıq zamanın sınağından uğurla keçib. Zaman mühüm amildir. Vaxtdan söz düşmüşkən söhbətimizin mövzusu ilə bir başa əlaqəsi olan bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu gün digər kurs yoldaşım şəhid polkovnik-leytenant Həmdəm Ağayevin anadan olduğu gündür. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu gün – son günlər hələ uzun illər tarixin yaddaşında yaşayacaq təlatümlü günlərin ərəfəsində, həqiqətən qəhrəmanlıq dastanlarına dönəcək hadisələrin astanasındayıq... Məhz bu nöqteyi-nəzərdən Məmməd Mərzili “Şəhid qardaşlar” adlandırdığı əsər sözün əsl mənasında tarixin müəyyən bir dövrünü əhatə edən canlı ziyalı və tərəfsiz şahidin dilindən həqiqi səlnamədir. “Tərəfsiz ədəbiyyat tarixdir” devizimizin tələblərinə tam cavab verir. Məmməd Mərzilinin nə yazdığına, necə yazdığına keçməzdən əvvəl özü-kimliyi ilə yaxından tanış olaq.

## QISA ARAYIŞ

Məmməd Mərzili (Məmməd Gürşad oğlu Sarıyev) 15 sentyabr 1956-cı ildə Xocavənd qəsəbəsində anadan olub.

1971-ci ildə Mərzili kənd orta məktəbinin 8-ci sinfini bitirəndən sonra Bakıdakı 74 №-li texniki məktəbində 1971-74-cü illərdə təhsilini davam etdirib. 1975-77-ci illərdə Almaniyadakı Sovet qoşunlarında xidmət edib.

Xidməti başa vurandan sonra Ağdamda müxtəlif müəsisələrdə, təşkilatlarda çalışıb.1983 -cü ildən Mərzili kəndindəki kolxozda ehtiyat hissələri, yanacaq anbarında anbardar işləyib.1993-cü ilin 12 iyunda ermənilər Mərzili kəndini işğal etdiyinə görə məcburi köçkün kimi Mingəçevir şəhərində məskunlaşıb. 1995-ci ildə Azərenerji ASC-nin HMD- nə işə qəbul olunub. Orada işləyə-işləyə Mingəçevirdəki ədəbi məclisin üzvü kimi bədii yaradıcılıqla məşğul olub.



AYB-nin Mingəçevir bölməsində 2008-ci ildən “Mingəçevir leysanı” ədəbi jurnalı çap olunmağa başlayanda bu jurnalda şöbə redaktoru kimi fəaliyyət göstərib. Sonra bu jurnal “Bənvöşə” adı altında çap olundu. 2023-cü ilin fevral ayına qədər “Azərenerji” ASC-də çalışmış Məmməd Mərzili hal-hazırda təqaüddədir.

Bu illər ərzində “Qarabağsız döyünən ürək” (2006), “Vətənə uzanan qollar” (2008), “Qarabağa gedən cığır” (2010), “Gözlə gələcəyəm” (2017) şeirlər, “Payızın qəmli notları” (2011), “Atəş altında toy” (2015), “Xıdırlıda qalan günlər” (2020), “845” (2022) nəsr kitabları işıq üzü görüb. Haqqında söhbət edəcəyimiz “Şəhid qardaşlar” kitabı müəllifin  oxucuları ilə 9-cu görüşü olacaq.

Məmməd Mərzili müqəddimə funksiyasını yerinə yetirən giriş hissəyə-əsərə aşağıdakı  şəkildə  uğurla  başlayır: “Çar Rusiyası zaman-zaman ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsini təşkil etmişdir. Bu məqsədyönlü aparılırdı. Məqsəd iki türk dövləti arasında xristian dövləti yaratmaq idi. Həm türk dövlətlərinin arasında sərbəst gediş-gəlişin qarşısını almaq, həm də türklərin tarixi düşməni olan ermənilərdən türklərə qarşı istifadə etmək. Ona görə köçürülən erməniləri İrəvan mahalında(İrəvan xanlığı azərbaycanlıların tarixi dədə-baba torpaqlarıdı) və Qarabağ xanlığında yerləşdirdilər.“

“Ağzını aç, kim olduğunu deyim”, - deyə məşhur bir deyim var. Belə bir giriş diqqətli oxucuya sona qədər yol yoldaşlığı etmək gücündə olan parlaq bir mayakla qiyaslana bilər. Yuxarıda təqdim olunmuş nümunədə ifadə olunmuş vahid türk torpaqlarının bilərəkdən məqsədyönlü şəkildə parçalanması, quru əlaqəsinin kəsilməsi fikri ən yüksək tribunalardan dəfələrlə səslənmiş olsa da bu mövzulu əsərdə yer alması məqsədəmüvafiq və təqdirəlayiq haldır. Tarixə qısa ekskursdan sonra hadisələrin başladığı zamana qayıdan müəllif:

“Xalq bu haqsızlığa dözə bilmirdi. Ağdam rayon PK-nin birinci katibi Sadıq Murtuzayev, İK-nin sədri Xuraman Abbasova milis işçilərini "Qarağacı" qəbiristanlığının yanında düzdülər ki, əliboş

camaatı qırğına verməsinlər. Onlar nə qədər çalışsalar da mümkün olmadı. Əli və Bəxtiyar adlı iki gənc "Vətən uğrunda!" – deyib Qarqar çayının içi ilə irəlilədilər. Əsgəran tərəfdə dayanan əsgərlər komandirlərinin əmri ilə onlara atəş açdılar. Qarqar çayı qana boyandı.

Əli və Bəxtiyar şəhid oldular. Onları unutmağa bizim haqqımız yoxdu. Onlar torpaqlarımız uğrunda gedən ilk şəhidlərdir." - ilk şəhidlərimizi xatırlatmaqla demək olar ki, mətləbə keçid edir: "Amma buna baxmayaraq, Qarabağın qara günləri başladı."

Ağdamın ölkə və respulika səviyyəsində əhəmiyyətindən söhbət açaraq mühüm atributlarla sadə, olduqca axıcı bədii-pulisistik dildə təqdim edəcəyi tarixi hadisələr üçün münbit zəmin hazırlayır. Əsərin ideyasının açılmasına xidmət edən olduqca müxtəlif hadisələr ziddiyyətli olsa da real tarixi fonda cərəyan edir.

**MƏZMUN və QAYƏ**

"Şəhid qardaşlar" əsərində Milli ordunun yaradılmasındakı çətinliklər, hərbi kadrların, silah-sursatın çatışmazlığı açıq şəkildə göstərilib. II Qarabağ müharibəsindən fərqli olaraq I Qarabağ müharibəsində ordumuz əsasən könüllülərdən təşkil olunmuşdu.

Ağdam rayonunun erməni kəndləri ilə həmsərhəd olan kəndlərində elə hallar var idi ki, bir evdən 4-5 nəfər döyüşürdü. Bu ailələrin çoxu 2 şəhid vermişdi. Hətta hərəsinin 3 şəhidi olan 2 ailə var idi. Mərzili kəndindən Əliyev İmranın döyüşən 5 oğlundan üçü; - Zakir,Tahir,Sabir şəhid oldular. Şelli kənd sakini Aslanov Kazımın da 4 oğlundan üçü; - Vidadi, Xəqani, Hasil şəhidlik zirvəsinə yüksəldilər.

Müəllif dünyanın demokratik adlanan dövlətlərinin soyqırıma, haqsızlığa qarşı göz yummalarını bu əsərdə əks etdirib. Bu haqsızlığın hələ də davam etməsini təəssüf hissi ilə oxucusuna çatdırır...

Bu əsər onlarla bərabər bütün şəhidlərimizin ruhuna həsr olunub. Qayəsi ərazi bütövlüyümüz uğrunda döyüşmüş və döyüşəcək igid, ər oğullarımızın şücaətini, qəhrəmanlığını, onların dəyanətli valideyinlərinin mətinliyini, sarsılmaz iradəsini, vüqarını, Yurd sevgisini gələcək nəsillərə çatdırmaqdan ibarətdir...



**ZAUR USTAC "QƏLƏMDAR-2"**

Əsərə: "Amma buna baxmayaraq, Qarabağın qara günləri başladı" cümləsi ilə başlayan Məmməd Mərzili onu: "Şükür Allaha, artıq Qarabağda Ordumuz QƏLƏBƏ BAYRAĞI qaldırıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin!" cümlələri ilə bitirir. Lap sondakı bu iki cümlə gələcəyə ümidlə, həyata sevgi ilə doludur...

Girişdə vəd etdiyim kimi, bir daha salnaməçilik haqqında xatırlatma etmək istəyirəm. Bir vaxtlar əldə silah döyüşmüş və ya sadəcə məlum hadisələrin canlı şahidi olmuş hal-hazırda söz cəbhəsində mücadilə edən qələmdarların bu mövzuda daha çox

yazmasında fayda var. Növbəti yazılarla görüşmək ümidi ilə sizdən ayrılıram...

Çox dəyərli oxucum, ən qiymətli nemət olan zamanınızı bu sətirləri oxumağa həsr edərək sona qədər həmsöhbət olduğunuza görə minnətdarlığımı bildirir, müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayıram! Ümidlərimiz doğrulsun!!!




**Zaur Ustac** “845” adlı yeni kitabının işıq üzü görməsi münasibəti ilə **Məmməd Mərzili**yə **“Ziyadar” mükafatı** təqdim edərkən.



*Məmməd MƏRZİLİ*

**QARA PIŞIK**

Bu gün qarşımdan qara pişik keçdi.Qədim inanclara görə, qarşıdan qara pişik keçməsi pis əla-mətlərdən sayılır.Həmin gün uğursuz hesab olunur.Odur ki, mən bu günü sönamaq qərarına gəl- dim.

Qızmar yay günü idi.Bir tərəfdən yayın, bir tərəfdən də atılan mərmilərin, güllələrin ətrafa ya-yılan istisi.Bu istilər cəbhə bölgələrində yaşayan əhalini sıxdıqca-sıxırdı.Hər yay yaylaqlara qal- xan tərəkəmənin də yolu bağlanmışdı.İndi onlar da bu istilərdə bişirdilər.

Hərbi maşınların, hərbi texnikanın buraxdığı zəhərli qazlar, qaldırdıqları toz dumanı burada yaşayan insanlara ağır zərbə vursa da, heç kim bunun fərqinə varmırdı.Həmişə güi-çiçək ətrinə bürünən havadan, indi barıt iyi gəlirdi.5 ildi ağır müharibə şəraitində yaşayan insanlar buna adət ediblər.Başlarına yağış kimi mərmilər, güllələr yağan əhali bu həyat tərzində yaşamağa bir daha alışmışdı.

* * *

Biz Mərzili kəndini müvəqqəti tərk edib (orada hərbi əməliyyat getdiyinə görə), Çəmənli kən- dində məskunlaşmışdıq.Çəmənli kəndi o zaman cəbhədən 15-20 km aralı olsa da,atılan mərmilə- rin səsi, avtomatların, pulemyotların şaqqıltısı açıq

eşidilirdi.
Mən hər səhər Çəmənlidən işə gedirdim.Bu səhər də, adətim üzrə, Ağdam rayonunun X.Natə-van adına sovxozunun qarajındakı iş yerimə tələsirdim.Evdən çıxanda qarşımdan qara pişik keç- di.Buna baxmayaraq, yoluma davam elədim (qədim inanclara görə,qarşıdan qara pişik keçəndə gərək geri qayıdasan).
Ağdam şəhərinə Uşaq Xəstəxanası tərəfdən daxil olanda əsgərlər maşınımı saxlatdılar.Məni saxlayanlar cəbhədən geriyə çəkilən əsgərlər idi.Ermənilərlə üz-üzə döyüşüb şəhəri müdafiə edən əsgərlərə kömək etmək əvəzinə, onlar geri çəkilirdilər.Onların haradan cəbhəyə gəldikləri ilə maraqlandım. Mənə məlum oldu ki, onları haradansa cəbhəyə məcbur tutub gətiriblər.Yenə sağ olsunlar, xəbərdarlıq etdilər ki, ermənilər şəhərə Əhmədavar tərəfdən daxil olublar.Buna baxmayaraq, Uşaq Xəstəxanasının yanındakı kanalüstü yolla iş yerimə getdim.Məndən bir az sonra sürücü Nuru kişi yanacaq daşıyan maşınla oraya gəldi.
* * *
Şiddətli döyüş gedirdi.Topların, tankların, BMP-lərin.. mərmiləri yeri lərzəyə gətirirdi.Pulem-yotların, avtomatların şaqqıltısı dayanmaq bilmirdi.Bu döyüş başqa günlərdəki döyüşlərdən fərq-li idi.Dinc əhali maşınlarla, piyada qaçhaqaçdaydılar.Onlar canlarını xilas etməyə çalışırdılar.Çı-ğırtıdan, bağırtıdan qulaq tutulurdu.Hamı çaşqınlıq içindəydi.Heç kim Ağdam kimi şəhərə ermə- nilərin daxil olmasına inana bilmirdi.Axı Ağdamın adın eşidəndə ermənilər tir-tir əsirdilər.
Ağdam şəhəri hələ belə narahat gün yaşamamışdı.Həmin gün indi də yadımdan çıxmır.Hər ya-dıma düşəndə də əsəblərim gərginləşir.
Bizim yanımızdan Dəyirman Kombinatı açıq görünürdü.Yanacaq götürmək istəyəndə düşmən tankları Dəyirman Kombinatı tərəfdən çıxdılar.Yanacaq götürəsi olmadıq.

-Nuru dayı, maşını sür gedək, -dedim.
Nuru kişi maşını sürüb ordan uzaqlaşdı.Mənim idarə etdiyim "Moskviç-412" işə düşmədi.Dar ayaqda tərsliyi tutmuşdu.Tanklar pulemyotlardan atəş aça-aça yaxınlaşırdılar.Güllələr ətrafıma yağış kimi yağırdı.Aşkar Allah məni qoruyurdu.Mən axırıncı dəfə Seyid Lazım ağanın cəddini çağırıb maşını işə salmaq üçün açarı açdım.Bu dəfə də mühərrik işə düşməsə, maşını orada qo- yub piyada qaçmaq fikrindəydim.Axır ki, mühərrik işə düşdü (Allah məni darda qoymadı).Maşın işə düşən kimi sürüb oradan uzaqlaşdım. Dəmir yolun keçib Sarcalı kəndinə tərəf üz tutdum.Sarcalı kəndinin qədim bağına çatanda gör- düm ki, Nuru kişi məni orada gözləyir.O, məni görüb çox sevindi.Dedi ki, "sənin sağ-salamat gəlməyinə Seyid Lazım ağaya nəzir demişəm.Sənə bir qəza üz versəydi, uşaqlarına nə cavab ve-rəcydim?"
Mən həmin gün atəş altından salamat çıxsam da, nə qədər əsgərlərimizdən, dic əhalidən şəhid oldular, yaralandılar, əsir düşdülər.Ağdam kimi şəhərimiz dağıldı, işğal oldu.Nə qədər kəndimiz od tutub yandı, işğalçıların tapdaqları altında qaldılar…
Allah sənə lənət eləsin, qara pişik! Sən mənim qarşımdan keçəndən didərgin düşmüşük, doğ-ma yurd yerimizə həsrət qalmışıq.Ermənilər və ermənipərəstlər torpaqlarımıza, insanlarımıza qə-nim kəsildilər.Başqa vaxtı ağdamlıların qorxusundan siçan deşiyinə girməyə hazır olan ermənilər "böyük xaç qardaşlarının" hesabına bizə meydan oxuyurlar.Arxalarında duran imperiya cəlladla-rı onları üstümüzə qısqırırlar.
* * *
Ay qara pişik, həmin vaxtı mən də tərslik elədim.Mənim də günahım var.Sən mənim qarşım- dan keçəndə geri qayıtsaydım, bəlkə də başımıza bu bəlalar gəlməzdi.Allah mənim tamahımı kəssin.İndi "Əli aşından da olmuşam, Vəli aşından da…"

Bu vəzifə, var-dövlət hərisliyi ( yəni tamahımız) torpaqlarımızın həmişə güdaza güdaza get-məyinə səbəb oldu.Hər il 23 iyul gələndə lənətləmə qara pişik gəlib durur gözlərimin qarşısında. Ay qara pişiklər, Allah sizə lənət eləsin, bəduğudsunuz! Elə bu ermənilər də sizə oxşayırlar.İn-di özümə söz vermişəm, qədim inanclara inamsız olmayacağam.Bir də qarşımdan qara pişik keç-sə, geri qayıdacağam.Daha gec olsa da…

**AĞ DƏMİR**

Çoxdan DAM (Dövlət Avtomobil Müfəttişliyi) –də işləməyinə baxmayaraq Alının rütbəsi hə-lə də leytenant idi.Ha çalışsa da, əlinə bir “yağlı tikə” düşmədi ki, verə rəisə həm rütbəsi qalxa, həm də vəzifəsi.
O, bu səhər də “ya Allah” deyib evdən çıxdı.Bu gün də gedib iş cədvəlinə qol çəkdi.Rəisdən tapşırığını alıb, xidməti maşınını minərək ona təyin olan sahəyə yollandı.Onun cavabde olduğu sahə rayon mərkəzindən 15 km aralı idı.
Alı çox da qəddar deyildi.Sürücülər onunla tez razılığa gəlirdilər.Bəzən cəriməni çöldən-çölə ödəyirdilər.Bəzən də yüngül cərimə yazdırıb ona əlavə “hörmət” edirdilər.Bu da hər iki tərəfin xeyrinə olurdu.Bir sözlə, sürücülər onu, o, da sürücüləri başa düşürdü.Ona görə də “gündəliyi” pis olmurdu. Bu ərazidəki sürücülər Alını yaxşı tanıyırdılar.Oğurluq malları olan kimi “koxanı gör, kəndi bas” məsəlindən istifadə edib “işlərini” görürdülər.Elə sürücülər vardı ki, vəzifəsinə görə onula qohum da olmuşdular.
Artıq axşamçağı idi.Alı xidməti maşınını minib getmək istəyirdi.Bu zaman Bakı tərəfdən ağır-ağır gələn bir “Zil” markalı maşın onun diqqətini cəlb etdi.O, dayanıb maşını gözlədi.Maşın ona çatanda Alı əlindəki “ala” cubuğu ilə sürücüyə dayanmaq işarəsi verdi.Sürücü onu 5-6 m keçən-dən sonra saxladı.
Sürücü kabinədən enib ona tərəf gəldi.O, bu sürücünü və maşını birinci dəfə idi görürdü.Sürü-cü ona çatıb ədıb-ərkanla

salam verdi:
-Axşamın xeyir, “nəçənnik” (rəis)! –O zaman bütün sürücülər DAM –in hər bir işçisinə vəzi-fəsindən, rütbəsindən asılı olmayaraq “rəis” deyirdilər.
-Aqibətin xeyir! Maşında apardığın nədi? Zəhmət olmasa özünün və apardığın yükün sənəd-lərini ver! –Alı da onunla rəsmi danışdı.
-“Rəis”, sənədləri neynirsən? Al bunu, icazə ver gedim. –Sürücü ona 25-lik əskinas uzadır.
-Maşındakı nədi? –Alı sürücüdən bir də soruşur.
-“Rəis”, maşında bir az dəmir var.Al bu pulu, məni burax gedim. –Sürücü əlindəki pulun üs-tünə birin də əlavə edib 50 manatı ona tərəf tutur.
-Hələ bir maşına baxım görüm nə var, nə yox.
Alı aramla maşına yaxınlaşdı.Maşının bortu hündür olduğundan o, çətinliklə də olsa, qalxıb maşına baxdı.Sanki gözlərinə işıq gəldi.Alının əlinə “yağlı tikə” düşmüşdü.O, özündən dazı hal-da maşınsan endi.Üzünü sürücüyə tutub əda ilə dedi:
-Ə, sən nə danışırsan? Maşının içi dolu ağ dəmirdi (paslanmasın deyə üzünə sink qatı çəkilən list dəmirə el arasıda “ağ dəmir” və ya “sinkovı” dəmir deyirdilər),heç sənədi də yoxdu, sən də mənə 50 manat verirsən? Bu həm də “kandiravat” (satışı qadağan olunmuş demək istəyirdi) maldı.Maşını mütləq şöbəyə aparmalıyam.
-“Rəis”, 300 manat verirəm, ora aparma. –Sürücü 300 manatı cibindən çıxarıb ona təklif etdi.
-Yoox, mən səni belə buraxa bilmərəm.Maşın yüklə birlikdə şöbəyə getməlidi.
Oğlan məbləği qaldırdıqca, Alı “maşın şöbəyə getməlidi” deyib durmuşdu.Sürücü hesabı on min manata çatdırsa da, o, razılaşmadı.Onun tərsliyi tutmuşdu.
-Otur maşına, sür arxamca!
Oğlan əlacsız qalıb maşına oturdu və onun arxasınca sürdü.Alı

maşını yaxınlıqdakı maşın-traktor parkına apardı.O, arabir belə edirdi.Nədənsə maşını birbaşa şöbəyə aparmağa tələsmədi. Onun daxilində bir lovğalıq baş qaldırmışdı.Sanki dünyaya məlum olmayan hansısa bir elmi ix-tira etmişdi.

-Maşını içəri sal, özün də səhər saat 9-da gələrsən.

Sürücü maşını gözətçi butkasından xeyli aralı, hasarın lap yaxınlığına verib saxladı.Hasarın o biri, çöl tərəfindən yol keçirdi.Qarajın içi qaranlıq idi.Bircə gözətçi duran yerdə zəif işıq yanırdı. Oğlan qarajdan çıxandan sonra Alı darvazanın qıfılına blom vurdu və gözətçiyə tapşırıq verdi:

-Səhər açılmamış lap müdirin də gəlsə, mənim adımı ver darvazanı açmasın.Əgər darvazanı açıb bu maşını buraxsan, cinayətə cəlb olunacaqsan.İşdi, əgər təcili nəysə baş versə, mənə bu nömrəyə zəng edərsən.-O, evinin telefon nömrəsini bir kağıza yazıb gözətçiyə verdi.

-“Baş üstə”! –Gözətçi bir qıfıl da gətirib əl qapısına vurdu.

Alı sürücüdən hara gedəcəyini soruşmadan maşınına minib getdi.Sürücü oradan gəlib şəhərə gedən yola çıxdı.Boş gələn bir taksini saxlatdırıb onunla şəhərə gəldi.Şəhərdə bu taksidən düşüb başqa bir taksiyə, -məni ağır yük qaldıran avtokranı olan bir qaraja apar! –dedi.Taksi sürücüsü onu bir qaraja apardı.O, düşüb gözətçidən avtokranin sahibinin ünvanını aldı.Həm də gözətçi ilə razılığa gəldi.Həmin taksi ilə gedib avtokran sürücüsünü gətirdi.50 manat verib taksi sürücüsünü yola saldı. Oğlan avtokran sürücüsü ilə razılığa gələndən sonra gözətçiyə dedi:

-Bu maşının qarajdan çıxmağın heç kim bilməməlidi!

* * *

Gecə yarıdan keçmişdi. Hər tərəfdə sakitlik hökm sürürdü.Bir qurbağaların quruldaması, bir də həzin əsən küləyin yırğaladığı ağacların yarpaqlarının xışıltısı eşidilirdi.Mürgülədiyini görən gö-zətçi yuxusunu dağıtmaq üçün gedib bura salınmış yük maşınına baxıb gəldi. O, heç bir təhlükə-nin olmadığına arxayınlaşdı.Ancaq az keçmiş necə

yuxuya getməyindən xəbəri olmadı.
Sürücü kranı hasarın yanında saxlayan kimi işıqlarını söndürdü.Oğlan cəld kabinədən çıxaraq kranın üstündən öz maşınının yük yerinə tullandı.Kran sürücüsü tez kranın qaldırıcısını işə salıb hasarın o biri tətəfinə keçirdi.Oğlan qarmaqları maşının dörd yerinə bərkitdi.Onlar maşını qaldı-rıb qoydular hasarın çöl tərəfinə.Oğlan qarmaqları maşından çıxaran kimi kran sürücüsü trosu yığdı.Hər iki maşın gecənin qaranlığında yoxa çıxdılar.
Onlar qorxulu-qorxulu elə işlədilər ki, arxayınçılıq zamanı heç belə alınmazdı.Oğlan kranı gö-
zətçiyə söz verdiyi vaxtdan tez gətirib qaraja qoydu.O, gözətçinin pulunu verib, kran sürücüsünü evinə apardı.Oğlan sürücünü evində düşürəndın sonra gedib yükünü apardığı yerə boşaldaraq sə-hər açılmamış şəhərdən çıxdı.
Alı xidməti maşınını öz qarajlarında qoyub arxayın evinə getdi.O, özünə gör nə qədər arxayın olmuşdu ki, nə maşının nömrəsini götürmüşdü, nə də sürücüdən maşının açarını almışdı.Evdən rəisə zəng vurdu:
-Rəis, əlimə bir “yağlı tikə” düşüb. Zil maşın dolu ağ dəmir tutmuşam.
-Bəs neylədin? –Rəis tez soruşdu.
-Aparıb salmışam kolxozun qarajına, darvazanı da blomlamışam.Səhər tapşırıq verərsiniz ge-dib bir nəfərlə gətirərik.
Rəis,-lap yaxşı,-deyəndən sonra Alı dəstəyi yerinə qoydu.O, öz-özünə fikirləşdi ki, bir maşın ağ dəmir tutmaq zarafat iş deyil.Hələ bunu kim verib, hardan çıxıb, nə bilim nə,nə… axırda da sürücünün özü.Əgər sürücünün özü on min manat verirsə, deməli burda hesab lap böyükdü.Həm vəzifəm artar, həm də rütbəm…
Bu xəyallarla Alı necə yuxuya getdisə, bir də saatın səhər zənginə oyandı.Alı şöbəyə çatdı ki, axtarışın rəisi onu gözləyir.Onlar qaraja yollandılar.Onlar kolxozun maşın-traktor

parkına girən-də gözətçini təşviş içində gördülər.Gözətçi dedi:
-“Rəis”, maşın yoxdu.
-Ə, sən nə danışırsan, necə yəni maşın yoxdu?
Alı tez maşın dayanan yerə getdi.Maşın həqiqətən orada yox idi.Heç elə bil burada maşın da-yanmamışdı.Gözətçini yanına çağırdı:
-Maşını kim aparıb? Düzünü boynuna al, yoxsa… –Alı milis işçisi kimi gözətçiyə öz hökmünü göstərmək istədi.
-“Rəis”,inanmırsan? Get darvazaya vurduğun bloma bax.
Gözətçi özü də bu işə mat qalmışdı.Darvaza açılmayıb, başqa yol yox, maşın da gedib.Bu ma-şını cin apardı, şeytan apardı?
Alı gedib darvazaya baxdı.Vurduğu blom yerindəydi.Hirsindən dartıb blomu qırdı.Onlar əlləri ətəklərindən uzun geri qayıtdılar.
Vəzifə, rütbə əvəzinə rəis əsəbindən Alıya şiddətli töhmət verdi.



Feyruz MURADOV

## RÜBABƏ MURADOVANIN ATASI

Mən Mirzə Xəlilin  qız ovladı Ruhəngiz Muradovanın oğluyam.Anam ailə albomunda atasının şəkillərini qoruyub saxlayır.Hərdən onun haqqında danışır.Odur ki, bir gün bunları yazmağı qərara aldım.Necə olmasa uzun illərdir Azərbaycan Jurnalistlər İttifaqının üzvüyəm.

Mirzə Xəlil İşrağİ 1896-cı ildə Lənkəran şəhərinin Hacılı qəsəbəsində anadan olub.Atası Hacı Murad fermer idi.İimkanlı şəxs olub.Çünki Mirzə Xəlil qəsəbələrindəki mədrəsədə fars dilində təhsil alandan sonra Lənkəran şəhərində dərslərini davam etdirməyə göndərib.Bu isə kasıb adam üçün mümkün ola bilməzdi.O, Mirzə Xəlilin nüfuzlu  ruhani görmək istəyirdi.Mirzə Xəlilin dərslərini yaxşı oxuması hacı Muradı ruhlandırırdı..Onun həmin dövr üçün yüksək təhsilə malik olması üçün heç nəyi  əsirgəmirdi.Atasının məsləhəti ilə Mirzə Xəlil 1914-cü ildə Bakıya yollanır.Burada Təzə Pir məscidindəki mədrəsədə ərəb dilində təhsilini davam etdirir və 1917-ci ildə təhsilini uğurla bitirir.Mədrəsədə dərs deyən din xadimlri Mirzə Xəlilin yüksək zehni qabiliyətini görüb atası Hacı

Murada məsləhət görürlər ki, onu ali dini təhsil almaq üçün Tehrana göndərsin.



Mirzə Xəlil 1960-cı illər

Hacı Murad onların məsləhətinə qulaq asır və bu təkliflə razılaşaraq oğlunu Tehran şəhərinə təhsilini davam etdirməyə göndərir.Elə həmin il Mirzə Xəlil Təzə Pir məscidinin axundlarının tövsiyəsi ilə Tehran şəhərinə yola düşür və bu onun həyatında yeni bir dövrün başlanğıcına olur.

Mirzə Xəlil fars , ərəb dillərində mükəmməl danışa və yaza bilirdi.Tehran şəhərində ali dini təhsil aldıqdan sonra o daha sonra Xorasan şəhərində tibbi təhsil alıb həkimlik ixtisasına da yiyələnir.

Təxmin etmək olar ki, Mirzə Xəlil Tehran şəhərində dini təhsilini bitirdikdən sonra axund kimi məsciddə fəaliyyətə başlayıb.Çünkü atası bu qədər müddətdə onun maddi tələbatlarını təmin edə bilməzdi.Mirzə Xəlil 1928-ci ildə Xorasan şəhərlərindən Ərdəbil şəhərinə gəlir və bu şəhərdə ailə həyatı qurur.

O, 1929-cu ildə Ərdəbil şəhərində Siddiqə Hacı Qafar qızı ilə evlənib. Burada özünə ev-eşik qurur.Həyatının ən xoşbəxt günlərini burada yaşayır.1930-cu ilin mart ayında ilk övladı Rübabə dünyaya gəlir.

Onu da xatırladım ki, Mirzə Xəlilin ailə qurduğu Siddiqə yaşca ondan xeyli kiçik olub.Onun 33 yaşı olduğu halda Siddiqənin cəmi 16 yaşı olub.Siddiqə atası Hacı Qafarın tövsiyəsi ilə Mirzə Xəlilə ərə gedib.Hacı Qafar Mirzə Xəlil yaxşı tanıyır onun Ərdıbildə tanınan , nüfüzlu bir adam olduğnu bilirdi . Odur ki qızını ona ərə getməsini məsləhət bilmişdi.Zaman göstərdi ki o bu qərarıda heç də yanılmamışdı.

Dini fəaliyyətlə yanaşı Mirzə Xəlil Ərdəbil şəhərindəki xəstəxanada həm də həkim kimi işləyir.Bu da ailəsinin yaxşı yaşamasına səbəb olur.Əbəs deyil ki , Rübabə xanım sonralar ərdəbil şəhərindəki evlərini , həyətlərini, ordakı xoşbəxt uşaqlıq və gənclik günlərini həsrətlə xatırlayacaqdı.

Rübabədən sonra ailədə başqa ovladları dünyaya göz açdılar.1933-cü ildə Ənvər,1942-cvi ildə qızı Ruhəngiz,1944-cü ildə isə Mahrux,1946-cı ildə kiçik oğlu Əşrəf dünyaya gəldilr.Siddiqə xanım həmişə kiçik oğlu Əşrəfin dünyay gəlməsini bir qədər gileylə xatırlayır və adətən belə deyirdi:

—Yaxşı yaşayırdıq.Əşrəf doğular-doğulmaz dünya qarışdı.Hər şey alt-üst oldu.

Siddiqə xanım bunu deməklə ,məhz həmin ilin dekabr ayında yurd-yuvalarından didərgin düşərək, siyasi mühacir kimi şimali Azərbaycana köçüb gəlməyə məcbur olduqlarını nəzərdə tuturdu.Hərçəndi ki, məhz həmin il  Əşrəfin dünyaya gəlməsinin buna heç bir aidiyyəti yox idi.Siddiqə xanım bununla yalnız öz ürək ağrısını şatdırmaq istəyirdi.Amma ailənin İrandan mühacirət etməsinin əsas səbəbi onun həyat yoidaşı Mirzə Xəlilin siyasi fəaliyyətə qoşulması idi.

Məsələ bunda idi ki,1945-ci ildə ikinci dünya müharibəsi Sovet Hökümətinin qələbəsi ilə bitmişdi.Stalin yaranan siyasi şəraitdən faydalanaraq İranda müstəqil Azərbaycan dövləti qurmaq fikrindı idi.bu səbəbdən də o İranda azərbaycanlıların milli azaddlıq hərakatının alovlanmasına rəvac verdi.Pişəvərinin başçılığı ilə azərbaycanlıların azadlıq hərakatı vüsət aldı.Təbriz şəhərində Azərbaycan demokratik firqəsi yaradıldı.Ərdəbildin tanınmış ziyayılarından olan Mirzə Xəlil Bu hərakatın əsas təşkilatçılarından  və Demokratik Firqənin Ərdəbil şəhər filialının yardıcılarından biri idi.Mirzə Xəlil firqəinin Ərdəbil  şəhər şöbəsinin sədr müavini vəzifəsini tuturdu.Demokratik hərəkat qələbə çalandan sonra ,1945-ci ilin dekabr ayında Təbriz şəhərində ilk qurultay keçirildi.Mirzə Xəlil Ərdəbil şəhərinin təmsilçilərindən biri kimi bu qurultayda iştirakçılardan biri olmuşdu.Onları qarşıda azad həyat gözləyirdi.lakin siyasi proseslər başqa istiqamətə yönəldi.beynəlxalq qüvvələrin təsiri nəticəsində covet qoşunları İranı tərk etdi.Şah rejimi İranda yenidən hakimiyyətə gəldi.Bundan sorra azadlıq hərakatının iştirakşılarının təqib olunması başlandı.Mirzə Xəlil şah rejimi gələndən sonra həbs olundu.Bir müddət sonra şah Rza şah siyasi məhbuslara

azdalıq verdi.Onları həbsdən buraxdı.Amma bu xarici qüvvələri razı salmırdı.Onlar şah rejimi ilə inqılabçılar arsında təxribata əl atdılar.Təxribata uyan şah rejimi yenidən həbslərə və edamlara başladı.Bunu görön Mirzə Xəlil 7 nəfərdən ibarət ailə üzvləri ilə İranı tərk etdi.Onlar 1946-cı ilin soyuq dekabr ayında arazı keçərək Şimali Azırbaycana üz tutdular.Burada onları yeni mühüt , yeni həyat gözləyirdi.

Sərhəddi keçəndən sonra Mirzə Xəlilin ailəsi əvvəlcə O vaxtkı Cəliliabad rayonunda məskunlaşırlar.Bir il bu rayonda yaşadıqdan sonra 1948-ci ilin əvvəllərində Səlyan rayonuna köçüblər.Mirzə Xəlil Səlyan xəstəxansında göz həkimi vəzifəsinə işə düzəlib.O iilər Azərbaycanda dini qadağalar güclü idi.Dövlət tərəfindən din adamlarına yaxşı baxılmırdı.Bu səbəbdən Mirzə Xəlil yeni mühütdə özünü rahat hiss edə bilmirdi.Onun uzun illər yaşadığı İranda dinə münasibət başqa idi.Burada ,Sovet dövlətində isə dinə qarşı sərt mövqe hökm sürürdü.Lakin xalq gizlində də olsa dini ayinlərə əməl edirdi.Xalq öz dinini əzəz tuturdu və yüksək dini təhsil görmüş Mirzə Xəlilə hər cür hörmət göstəriridi.Məhz Səlyan rayonunda Mirzə Xəlilin daha iki övladı dünyaya gəliblər.1948-ci ildə Səlyan rayonunda qızı Tahirə .1953-cü ildə isə sonbeşiyi Pərvin doğulduiar.

Mirzə Xəlil onu təklifini qəbul edir və elə həmin il Əli Bayramlıya gəlir.Birinci katib vədinə sadıq qalır .Burada Mirzə Xəlil torpaq sahəsi alır , ailəsi üçün ev tikir.o 1957- 67-ci illərdə Əli Bayramlının axundu olur.Sonralar Əli Səfərov birinci katiblikdən getsə də ondan sonra vəzifəyə gələn Məmməd Məmmədov da ,Bilal Kərimov da hər biri Mirzə Xəlilə böyük hörmət göstərirlər.



Mirzə Xəlil ortada əyləşib - 1960-cı illər

O bir vaxtlar cavanlıqda Ərdəbil şəhərində qurmuş olduğu ev və həyət kimi Əli Bayramlı şəhərində ailəsi üşün yeni ev , həyət qurur.Böyük oğlu Ənvəri evləndirir.Ona həyət alır.Ənvər ticarət sahəsində işə düzəlir.Kiçik oğlu Əşrəf Unversitetin tarix fakultəsini bitirir və tarix müəllimi işləyir.Böyük qızı Rübabə azərbaycanın xalq artisti adına layiq görülür.İrandan mühacir kimi gəldiyi üçün onun qarşısında bir çox sədlər çəkilir.Xarici ölkələrə qastrol səfərlərinə icazə verilmir.Əgər bu qadaqğalar olmasaydı Rübabə bəlkə də dünya şöhrətli müğənni ola biləcəkdi.
Mirzə Xəlil 1967-ci ildə Əli Bayramlıda dünyasını dıyişib və burada dəfn olunub.O keçməkeşli həyatının son on ilini Əli

Bayramlıda yaşadı.Yaşlılardan eşitdiyim söhbətlərdən öyrənmişəm ki, onun dəfni həddən artıq izdihamlı keçib.Onun dəfnində və hüzür mərasimində şəhərin bütün tanınmış adamları iştirak ediblər.Məclisə gələn Birinci katib Bilal Kərimov göstəriş verib ki, onun yaşadığı küçəyə təcili asfalt çəkilsin və küçə dərhal işıq sistemi ilə təmin olunsun.Qısa vaxt ərzində bu məsələlər operativ həll olunur.



Mirzə Xəlilin Şirvan şəhərindəki məzarı.



***Budaq TƏHMƏZ***

**HEYDƏR BİR GÜNƏŞDİR**

İlhamım İlhamla gəlibdir dilə,
Könlüm salam verir çiçəyə, gülə.
Deyirəm bu sözü, qoy düşsün dilə,
Heydər bir Günəşdir, o, sönə bilməz,
Uca zirvələrdən o, enə bilməz.
***
Pakdır, müqəddəsdir qəlbi, vicdanı.
Vətən qeyrətilə qaynadı qanı,
Apardı irəli Azərbaycanı,
Heydər bir günəşdir, o, sönə bilməz,
Uca zirvələrdən o, enə bilməz.
***
Deməyin ölübdü, yaşayır Heydər,
Hər il cavanlaşır gələndə bahar,
Bütün qitələdə adı-sanı var,
Heydər bir Günəşdir, o, sönə bilməz.
Uca zirvələrdən o, enə bilməz.

***

Budaq Təhməz, haqqı yaşat həyatda,
Dahilərin adı yaşar həyatda,
Bir möcüzə, bir hikmət var bu adda,
Heydər bir Günəşdir, o, sönə bilməz.
Uca zirvələrdən o, enə bilməz.

**ÖLMƏYİB, YAŞAYIR HEYDƏR ƏBƏDİ**
Qoymadı tökülə millətin qanı,
Qorudu, saxladı Azərbaycanı,
Gəzdi qitələri, gəzdi dünyanı,
Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!
* * *
“Ümid körpüsü”dür gözlərin nuru,
Orda qərar tutub Heydər qüruru,
Nura qərq elədi qədim Şəruru,
Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!
* * *
Hər an qalib çıxdı siyasətində,
Milləti qoymadı darda, çətində,
Vətəni yaşatdı öz qeyrətində,
Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!
* * *
Onun əsəridir Bakı–Ceyhanım,
“Qara qızıl” verən Azərbaycanım,
Sabaha inamla qaynayır qanım,
Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!
* * *
Hər yerdə Heydərin izi görünür,
Söhbəti görünür, sözü görünür,
Hər kənddə, şəhərdə özü görünür,

Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!
* * *
Mən Budaq Təhməzəm, yazan əlim var,
Xoşbəxtəm, müstəqil, azad elim var,
Üçrəngli bayrağım, ana dilim var,
Ucalır hər yerdə Heydər məbədi,
Ölməyib, yaşayır Heydər əbədi!

**GƏLİN SADƏCƏ EDƏK**
Heydər! Azərbaycan! Qoşadır bu ad,
İlhamım bu adla açır qol-qanad,
Azad yaşayanda gözəldir həyat,
Yurdumuz görməsin bir də qan-qada,
Gəlin səcdə edək bu ülvi ada.
***
Heydər qeyrət nuru! Tayı tapılmaz,
Belə şəxsiyyətlər yaranır az-az,
Bunu dərk eyləməz hər ağlı dayaz
Yurdumuz görməsin bir də qan-qada,
Gəlin səcdə edək bu ülvi ada.
***
İyirminci əsrin siyasət şahı,
Dar gündə xalqının oldu pənahı,
Nəydi şəhidlərin, nəydi günahı?
Yurdumuz görməsin bir də qan-qada,
Gəlin səcdə edək bu ülvi ada.
***
Heydər baba ərənlərdən ərəndi,
Budaq Təhməz bu dünyanı görəndi.
Vətən üçün canın qurban verəndi,
Yurdumuz görməsin bir də qan-qada,
Gəlin səcdə edək bu ülvi ada.

**HEYDƏR EŞQİNƏ**

İlhamım söz üstə coşubdur yenə,
Heyranam Vətənin gözəlliyinə,
Deyirəm bu sözü mən dönə-dönə,
Alqış bu dövrana, alqış bu günə
Yaradıb qururuq Heydar eşqinə.
***
Poladdan mətindir Heydər inamı,
Qəlblərdə yaşadır Heydəri hamı,
Odur xilas edən Azərbaycanı,
Alqış bu dövrana, alqış bu günə
Yaradıb qururuq Heydər eşqinə
***
Dünyaya səs salıb əməllərimiz,
Bu gün Avropadan gəlir səsimiz,
Gedirik inamla gələcəyə biz,
Alqış bu dövrana, alqış bu günə
Yaradıb qururuq Heydər eşqinə
***
Müqəddəs kəlamdı Heydərin sözü,
Zirvədən-zirvəyə səslədi bizi,
Bizə tanıtdırdı tariximizi,
Alqış bu dövrana, alqış bu günə
Yaradıb qururuq Heydar eşqinə.
***
Man Budaq Təhməzəm qələm əlimdə,
Müstəqil dövlətim, doğma elimdə,
Şeirimi yazıram ana dilimdə,
Alqış bu dövrana, alqış bu günə
Yaradıb qururuq Heydər eşqinə.



## Təvəkkül GORUSLU

**ÜRƏKDƏSƏN SƏN**

Sevdiyim ürəyin, sevdiyim qəlbin,
Bəyənmək nə demək, ölürəm gülüm.
Sevdiyim ilhamın, sevdiyim təbin,
Bu eşqdən yaranmış, bilirəm gülüm.
* * *
Məhəbbət, sədaqət mayəsi Qeybin,
Mən onu səninlə bölürəm, gülüm.
İzdivac göylərdə kəsilən kəbin,
Nə vaxtdır səninlə gəlirəm, gülüm.
* * *
Bəyənmək azdırsa, sevmək çox deyil,
Sevgidən, sevdadan yüksəkdəsən sən.
Goruslu qırağa salmazki mey( i)l,
Əzəldən ruhunda, ürəkdəsən sən.
*13. 07. 2022.*

**RUHUMUZ SƏNƏ ƏMANƏT**

İndi cismimizi zaman,
Zamanı cismimiz qucaqlayıb.
Necə də gözəldi bu ağuş,
Sevinciylə, kədəriylə,
Ruhumuz göylərdə…

Qol- boyunuq,
Yol gedirik,
Yazısıyla, qədəriylə.
Bəzən xoşbəxt,
Bəzən bədbəxt,
Yuxusuz gecəsi,
Nurlu səhəriylə.
Bir gün torpaq qucaqlayacaq,
Ruhumuz göylərdən enməsin, Tanrım!
Cismimiz torpaq,
Ruhumuz zaman olsun!
Xatırlansın zaman- zaman.
Biz səndən bir şey ummadıq,
Sənə şərik sanmadıq,
Yaradılanıq, danmadıq,
Çoxumuz röyadan oyanmadıq…
Ruhumuz sənə əmanət, Tanrım!
*12. 07. 2023.*

**HƏZİNLİK GƏLSİN**

Gecələr götürüb ayın nurunu,
Silibdi günəşin üzdən ləkəsin.
Gecənin günəşlə yoxdur sorunu,
Günəş də gündüzə tökür hikkəsin!
* * *
Töyşüyür budaqda saralan yarpaq,
Saplağı boynunda kəndir kimidi.
Çırpınır küləklə burulan yarpaq,
Atəşdən torpaq da təndir kimidi.
* * *
Hanı bu səmanın buludu hanı?
Yetişsin geyinib qara çuxasın.
Qovruldu çəmənin, çiçəyin canı,
Açsın köynəyinin dolu yaxasın!

* * *

Yayılsın ətrafa torpağın ətri,
Açıq pəncərədən sərinlik gəlsin.
Dirilsin şeirimin yazılan sətri,
Ruhuna Goruslu həzinlik gəlsin!
*10. 07. 2023.*

**ŞUŞA**
Adı gəlcək könül dinir, qəlb oxuyur,
Ritmdir, cəngidir, sədadır Şuşa!
Rəmzi xarıbülbül, muğam qoxuyur,
Hissdir, həyəcandır, nidadır Şuşa!
* * *
Ölkəmin köksündə döyünən ürək,
Həm Azərbaycana nəfəsdir Şuşa!
Zirvələr üstünə enən bir mələk,
Yaddaşa süzülən "O" səsdir Şuşa!
* * *
Azərbaycanımın şanı, şərəfi,
Namusdur, qeyrətdir, əxlaqdır Şuşa!
Xalqımın mənliyi, duyğu tərəfi,
Ruhunda çağlayan irmaqdır Şuşa!
* * *
Tanrıdan tikilmiş yaşıl qoftası,
Qəlbləri fəth edən imandır Şuşa!
Şəhidlər uğrunda olcaq fədası,
Bayrağa lalətək damandır Şuşa!
* * *
Zirvəsi qıy vuran qartal məkanı,
Ətəyi bəhərli , arandır Şuşa.
Zəfərlə qazanıb şansı, imkanı,
Birliyə vəsilə, "Turandır" Şuşa!
*01.06.2021.*




## Mustafa Müseyiboğlu adına kitabxana



*Murad MƏMMƏDOV*

**İNCƏ DƏRƏSİ.**

Bir ulu diyar var Azərbaycanda,
Bir görən istəyər, qayıtsın bir də.
Hər kəsin yeri var, ürəkdə, canda,
Doğmadı, əzizdi, yad da bu yerdə.
* * *
Dərdlərə dərmandı quru havası,
Bu sakit məkanda ağrımaz canın.
Şeirdi, qoşmadı dərdə dəvası,
Ürəyi doludu burda insanın.
* * *
Ləhcəsi doğmadı, şirindi mənə,
Bu dili həmişə laylam sanmışam.
Nə qədər uzaqda yaşasam yenə,
Harada eşitsəm, duyğulanmışam.
* * *
Bu dilbər guşənin əvəzi yoxdur,
İnsanı məst edər quşların səsi.
Yaxından, uzaqdan mehmanı çoxdur,
Hər kəsi cəlb edər görmək həvəsi.
* * *

Sığınıb dağların qoynuna çoxdan,
Elə bil aləmdən uzaqlaşıbdı.
Bu üç kənd qohumdu, qonşudu haqdan,
Sanki bir-biriylə qucaqlaşıbdı.
* * *
Üç kəndin cəmidi, İncə dərəsi,
Kəmərli, Qaymaqlı, Astanbəylidir.
Adıyla öyünən eldi hərəsi,
Məclisi, yığnağı səsli-küylüdür.
* * *
İncə dərəsidir, bu yurdun adı,
Mən də doğulmuşam, burda, oxucu.
Peşiman eyləməz tanışı, yadı,
Oxu, ziyarət et, baxma göz ucu.
* * *
Söz demək istədim onun adına,
Ağlımdan o qədər fikirlər keçdi.
Nə bir zəhmət çəkib, yandım oduna,
Nə də bir doyunca suyundan içdim.
* * *
Ancaq ömrü boyu borc bildim yenə,
Ruhumla, canımla yurda bağlıyam.
Qorxuram, yapışmaz, yaraşmaz sənə,
Çünki, mən də bu torpağın oğluyam.
I
Tarixin qədimdi, torpağın ulu,
Ruhumun canısan, İncə dərəsi.
Qazağın sifəti, imzası, qolu,
Adısan, sanısan, İncə dərəsi.
* * *
Nə qədər gözəldi, incədi adın,
Cəmi üç kənd olub, qolun-qanadın.
Görüşünə gələn tanışın, yadın,
Dərdə dərmanısan, İncə dərəsi.

* * *
Zəhmətiylə təmiz, halal çalışan,
Sevincindən ruha gələn, alışan,
Qiyasbəylilərin ruhu dolaşan,
O yurdun xanısan, İncə dərəsi.
* * *
Köksündə izi var, neçə illərin,
Həmişə şen olsun, görüm ellərin.
Biz gəldi-gedərik, sən nəsillərin,
Qaynayan qanısan, İncə dərəsi.
II
Qismətə, taleyə çox inanmışam,
Nə gəlib başıma ,qismət, demişəm.
Olub ki, on mini qəpik sanmışam,
Olub da, quruca çörək yemişəm.
* * *
Ümiddən əlimi üzmədim heç vaxt,
Nə də ki, Tanrıya asi olmadım.
İnandım, yazılı bu tale, bu baxt,
Məni utandırmaz. Darda qalmadım.
* * *
Çünki inanmışam Allaha hər an,
Bu inam, bəlkə də ruhumdan gəlib.
Tanrı, aramızda cavabsız qalan,
Nə qədər günah var ,sonlayıb, silib.
* * *
Bəxtim gəl-gəl deyib, önümdə durub,
Gözümü mən bu torpaqda açmışam.
Bu torpaq önümdə sədd, divar qurub,
Yaramaz işlərdən hər an * * *qaçmışam.
* * *
Bu yerdə gəzmədim şenlik, abadlıq,
Məni dilləndirən havadı, sudu.

Quşların səsində ruhi rahatlıq,
İnsanı cəlb edən gözəllik budu.
III
Bu eldə elmiylə dünyalar gəzən,
Tanrıya tapınan bir bəndə yatır.
O, elə bir övliyya, elə alimdir,
Həm mənim ruhumda, həm səndə yatır.
* * *
Türbəsi dayaqdı bu el-obaya,
Onu ziyarətə milyonlar axar.
Mübarək ruhuyla yetişər hoya,
Hamıya doğmadı, bir gözlə baxar.
* * *
Məkanı kiçikdi, söhbəti böyük,
Adına sınanmış insanlar gələr.
Ziyarət eyləsən, nə çaş, nə döyük,
Səni qucaqlayar, doğması bilər.
* * *
Bu yurdda ağıllı insanlar olub,
Öz sözü, səsiylə bir elə misal.
O elə bir nəsil ki, yenə də qalıb,
Həm özü şəxsiyyət, həm ləhcəsi bal.
* * *
Nə yaxşı könlünə yaxın yerdədi,
İlahi, gözündən uzaq olmasın!
Bu elə tay olan elin hardadı?!
Saxla pənahında, darda qalmasın!
* * *
İnsanı bağlıdı obaya, elə,
Canıyla, qanıyla yurda dayaqdı.
Bu dünya durduqca, qalacaq hələ,
Bu dərə, həmişə sərvaxt, oyaqdı.

IV
Nə gözəl mənzərədi,
Ruhumu alıb gedir.
Bəlkə buna görədi,
Əhvalım göylərdədir.
* * *
Yaradandan bəndəyə,
Lütf olan gözəllikdi.
Ruhum dil açır deyə,
Yarəb, dünya mənlikdi.
* * *
Ətrafımda quş səsi,
Burnumda gül qoxusu.
Cəzb eləyir hər kəsi,
Cuşa gəlir çoxusu.
* * *
Bura cənnətin özü,
Laylam oxunan yerdi.
Azərbaycanın gözü,
Mənə səcdəgah, pirdi.
* * *
Bütün dərdi-sərimi,
Burda unutmaq olur.
Könlüm məzar yerimi,
Sonumda burda bulur.
* * *
Bura, arxam, güvənim,
Mənim qibləgahımdır.
Yaşadığım dünənim,
Bu günüm, sabahımdır.
* * *
Yurdumun torpağına,
Daşına qurban olum!

Gələcəm ayağına,
İncə dərəm, son yolum!
V
Vətənimin sonunda,
Həmişə yaz donunda.
Mənim ruhum, ürəyim,
Canım, İncə dərəsi!
* * *
Məkkəmsən, Mədinəmsən,
Doğma yurdum, binəmsən.
Məzar yerim, son qibləm,
Yönüm, İncə dərəsi!
* * *
Çox gəzmişəm, hər yeri,
Səndən ayrı sərsəri.
Başqa yerə qaynamır,
Qanım, İncə dərəsi!
* * *
Cənnət olsa yan-yörəm,
İstəmərəm, mən görəm.
Ancaq səndə xoş keçər,
Anım, İncə dərəsi!
* * *
Bezdim insan köçündən,
Milyonların içindən,
Seçilməz mənim adım-
Sanım, İncə dərəsi!
* * *
Dan yeri sökülləndə,
Yollarım bükülləndə,
Çatacaqmı axırım,
Sonum, İncə dərəsi?!




MURAD MƏMMƏDOVUN KİTABI

Mustafa Müseyiboğlu adına kitabxana



## Mövlud AĞAMMƏD

**VAR…**

Bu yuxunun gerçək adlı tərsi var,
Bu yuxuda ölüm dadı, tamı var.
Bu yuxumu istəmirəm çin olsun,
Bu yuxunun zəhər dolu camı var.
* * *
Kim gətirdi bu yuxunu yuxuma?
Qəm çiləndi, dərd ələndi ruhuma.
Bu yuxunun yozumunu oxuma,
Bu yuxunun pərvanəsiz şamı var.
* * *
Hər anında bir ömürlük xatirə.
Xəyalları, xülyaları gətirər.
Bu yuxuda Mövlud özün itirər,
Bu yuxunun üstü torpaq damı var.
*2.03.2023. Zərdabi.*

**QOŞMA**

Hər ağızın bir avazı, duası,
Kəramət var, inayət var, sözüm var.
Öz özünə bağışlanmaz günahlar,
Məlamət var, qiyamət var, közüm var.
* * *
Aşiqlərin yoxmu məgər dərdləri,
Göz yaşları uçurmazmı bəndləri?
Necə keçim bu keçilməz sədləri,
Mətanət var, dəyanət var, dözüm var.
* * *
Əssə əgər qara yellər dövrana,
Dağ çəkilər sinəsindən dörd yana.
Bağlayıban atın dərin zindana,
Həqiqət var, hidayət var, düzüm var.
* * *
Dünya, Mövlud, yaranışdan ələnir,
Gələni də, gedəni də bələnir.
Adəm oğlu Xaliqinə silənir[1],
Nəhayət var, bidayət var, lüzüm var.

***1. burada qovuşmaq***

*7.03.2023. Zərdabi.*

**BİRDİR**

Sirlə dolu bir düyünü,
Açma, sirri pünhan birdir
Kilidlənib axıracan,
Cəhd eləmə, açan birdir.
* * *
Sığınmışam dühasına,
Dərd gətirən davasına.
Vallah, bu qəm havasına,
Ha alovlan, ha yan, birdir.

* * *
Tərif etmə bu gərdişi,
Tərk edib Mövlud vərdişi.
Əzrayılın yoxdu işi?
Can alacaq, o can birdir.
*31.12.2022. Zərdabi.*

**İTİRƏM**
Bəzən olur, xatirələr qarışır,
Daş yaddaşım iz, içimdə itirəm.
Dünya məni kölgəsində gizlədib,
Özüm sanki öz içimdə itirəm.
* * *
Kaş görəydim kimliyimi geridə,
Nələr qalıb o günlərdən bəridə.
Xəyallarım buz ömrümü əridə,
Alovlanır köz içimdə, itirəm.
* * *
Taleyimə qəm dəftəri yazılıb,
Çəkildikcə ötənlərim azalıb.
Deyir, Mövlud öz payına az alıb,
Həsrətinə döz içimdə itirəm.
*9.12.2022. Zərdabi.*

**QOŞMA**
Ala gözlüm, həsrət bir şey deyil ki,
Çəkmək ilə qurtarmaqdı qorxusu.
Nə xəyalın gəlsin yaxın, nə də sən,
İstədiyim tək bənövşə qoxusu.
* * *
Düşməyəsən dərdin dərin dibinə,
Nə bilirsən dərd üzü nə, dibi nə?
Hər görəndə dərdin səni sevinə,
Qalxa bilsin ərşə dərdin yuxusu.

* * *

Mövlud deyır, yalan acı, düz acı,
Dərd gətirər gülüş acı, söz acı.
Elə bil ki, təkcə mənəm möhtacı,
Nə gizlədim, belə deyir çoxusu.
*25.02.2023. Zərdabi.*



## Tərانə DƏMİR

**ŞEİRLƏR**

***

Başımıza nə gəldisə
Sənin üzündən gəldi.
Bu artığın, bu əksiyin,
Kəmin üzündən gəldi.

Külək kimi əsib coşdun,
Dəniz kimi aşıb daşdın,
Bilirsən ki, bu sel, daşqın
Nəmin üzündən gəldi.

Nə dedim nəhsə yozuldu,
Yaxşı da pisə yozuldu,
Yuxular tərsə yozuldu,
Sevda gözümdən gəldi.

Bir şirin sözə aldandın,
Od bildin, közə aldandın,
Qəlbə yox, gözə aldandın,
Fərman özündən gəldi.

***

Bu səhərdə başqa ruh var,
Bu səhər başqa səhərdi.
Torpağın üzü suludu,
Göyün üzü simuzərdi.

Çiçəklər də ayrı rəngdə,
Otlar da ayrı rəngdədi.
Arzular təzə tərdilər,
Ümidlərsə bələkdədi.

Günəş səma yuvasından
Gülümsəyir yerə sarı.
Bir birini qucaqlayır
Ağacların budaqları.

Çiçəklərin başı üstə
Bülbüllər nağıl danışır.
Dəniz sahilə tələsir,
Çaylarsa axır, danışır.

Dağılıbdı fikir, xəyal,
Dərd də, ələm də dağılıb.
Bu səhər başqa səhərdi,
Gözündə sevgi doğulub.

***

Axı bu köpəyin günahı nədi?
Gələn də, gedən də daş atıb keçir.
Kimin nə hirsi var, nə hikkəsi var
Bu itin üstünə boşaldıb keçir.

Dili yox dərdini açıb danışsın,
Hürür, səsinə də daş atırıq biz.
Bəlkə yaralıdı, elə bu daşla
Yenidən yarasın qanadırıq biz.

Küçədən keçənə, gəlib gedənə,
Sənə də, mənə də yalmanır bu it.
Durub köpək kimi yol qırağında
Uşağa, böyüyə yalvarır bu it.

Bu itin it dərdi, it azarı var,
Bilmir hara atsın dərdini yazıq.
Qupquru çörəklə, köhnə sümüklə
Öldürür gözünün qurdunu yazıq.

Nələr gizlədibdi baxışlarında,
İlahi, bu itin gözü danışır.
Yaralı quyruğu, kəsik qulağı,
Bulaşıq ayağı, dizi danışır.

Axı bu köpəyin günahı nədi?
Gələn də, gedən də daş atıb keçir.
Kimin nə hirsi var, nə hikkəsi var
Bu itin üstünə boşaldıb keçir.

***

Bir ümid çiçəkləyir başım üstə deyəsən,
Adını nə qoyum mən ilin, günün bu vaxtı?
Bilmirəm əllərindən tutummu, tutmayımmı,
Tutsam günahkar ollam, tutmasam da günahdı.

Payızın ortasında hardan çıxdı bu bahar,
Tanrımı lütf elədi, ya yarımçıq duyğular?
Bəlkə də irəlidə hələ neçə qınaq var,
Batsam günahkar ollam, batmasam da günahdı.

Min ulduzun birini seçib gəlib bu sevgi,
Arzunun qanadında uçub gəlib bu sevgi,
Tənhalığın içindən keçib gəlib bu sevgi,
Dadsam günahkar ollam, dadmasam da günahdı.

Bəlkə bu da sınaqdı, imtahandı, bilmirəm,
Ya xəzana, payıza bir üsyandı,bilmirəm,
Hansı hissdi, duyğudu, həyəcandı, bilmirəm,
Atsam günahkar ollam, atmasam da günahdı.

Necə götürüm indi bu eyhamı, minnəti?
Yüz cümlə ovudammaz bir ağrıyan həsrəti,
Hansı zülmətə satım bu boyda həqiqəti ?
Satsam günahkar ollam, satmasam da günahdı.

***

Tanıyırsan bu ağacı,
Bu dalanı, küçəni sən?
Bu küçədən keçəni sən?
Bu küçəni qucaqlayan gecəni sən?
Yadında qalıbmı görən

Göydən ulduz dərməyimiz,
Sonra da bu ulduzları
Ulduz-ulduz sevməyimiz?
Eh, hardan düşsün yadına,
Sən ki, keçməmisən burdan.
Bu küçə də, bu ağac da,
Bu gecə də sənə yaddı.
Özün özündən xəbərsiz
Ürəyimə
bir daş atdın,
Heç kəs çıxara bilmədi.
Çıxıb getdin elə sakit, elə səssiz,
Geri çağıra bilmədim.
Heç vaxt xəbərin olmadı
Bu gözəl, göyçək Fatmadan.
Olsaydı, sən də sevərdin,
Ya da, sevməzdin nə bilim.
Bilirsənmi nağıl adam,
Bu gün də sənin adına
Göy üzündən ulduz dərdim.

***

Bu zülmət gecədə, bu dar otaqda
Divar xatirədi, tavan xatirə.
Min ildi ruhumu ac buraxmısan,
Gözünü doyurmur yavan xatirə.

Görən nə saxlayır səndən bu gecə,
Böyründə, başında nə qalıb görən?
Gözlərim çırpınır fikir torunda,
Kirpiyim asılıb xatirələrdən.

Xəyallar gözümü yorur eləcə,
Yuxuma daş atıb qaçır xəyallar.
Gecə öz taxtında dincələ bilmir,
Qapısın bağlayır, açır xəyallar.

Pəncərə-pəncərə səhər açılır,
Pəncərə pəncərə bağlanır gecə.
Başımı qatıram sözlə, qələmlə,
Hər gün bir nağıla aldanır gecə.

Ayla danışıram, gecə boyunca
Göyün sinəsindən ulduz yığıram.
Bu təklik, tənhalıq vecimə deyil,
Səni unutmaqdan yaman qorxuram.

***

Səndən əvvəl mən kim idim, bilmirəm,
Səndən sonra "divanədi" – dedilər.
Ocaq bildim, hey dolandım başına,
"Bu da bu cür pərvanədi" – dedilər.

Təpə idin, dağ elədim səni mən,
Viranəydin, bağ elədim səni mən,
Məhəbbətlə ətirlədim səni mən,
"Başdan-başa sehranədi" – dedilər.

Gah enişdən, gah yoxuşdan keçirdin,
Gah tufandan,gah yağışdan keçirdin,
Neçə-neçə aldanışdan keçirdin,
"Ayrılmağa bəhanədi" – dedilər.

Dönə-dönə bağışladım, bilmədin,
Küsdüm, yenə bağışladım, bilmədin,
Səni mənə bağışladım, bilmədin,
Ünvanıma “mərdanədi” – dedilər.

Bircə ovuc külə döndün axırda,
Cadar-cadar çölə döndün axırda,
Doğmam idin, elə döndün ,axırda
“Sevgi yoxdu, əfsanədi” – dedilər.

Bir sevgini tutammadın ayaqda,
İtib batdın neçə-neçə günahda,
Misra-misra şeirləşdin varaqda,
“Bunun könlü qəmxanədi?” – dedilər.

Sənsizliyə alışmağa çalışdım,
Sənsizliklə barışmağa çalışdım,
Başım səni unutmağa qarışdı,
“Məhəbbətə biganədi” – dedilər.

***
İlahi, küsüb bu ağac,
Qanrılıb uzünə baxmır.
Əyilib qolu, budağı,
Deyəsən sözünə baxmır.

Dili-dodağı təpiyib,
Cayır-cayır yanır ağac.
Yarpaq-yarpaq xəzəlləşib,
Özündən utanır ağac.

Üzündəki qırışına,
Gözündəki yaşına bax.
Baharını yel aparıb,
Üstündəki qışına bax.

Yorulub əldən düşübdü,
Bir də çətin ki, dikələ.
Bu ağacın ömrü bitib
Yola tökülə-tökülə.

Ömrünü bu yola verib,
Bu yoldan keçənə ağac.
Küləyə, selə, yağışa,
Bu dumana, çənə ağac.

Görəsən haçan bitəcək
Vaxtı vədəsi ağacın?
Yolun umuduna qalıb
Quru kölgəsi ağacın.

***

Nə yaman uzaqdı ölüm,
Gedirəm, çata bilmirəm.
Əcəl oynayır mənimlə
Bəlkə də, ya da bilmirəm.

Boyuma biçən tapılmır,
Əynimə ölçən tapılmır,
Mən boyda kəfən tapılmır,
Göyü allada bilmirəm.

Gedirəm üzüyuxarı,
Hanı əvvəlin axırı?
….Hardasa ruhum çağırır,
Səsindən tuta bilmirəm.

Olum də bir ölüm imiş,
Gəlib getmək zülüm imiş,
Əynimdəki külüm imiş,
Üstümdən ata bilmirəm.

***

Yenə boğur arzuları gözündə,
Yenə batır min günaha bu payız.
Heç bilmirsən dərdi nədi, səri nə,
Fikrin salıb darıxmağa bu payız.

Hara baxsan susuzluqdu, quraqdı,
Hardan tutsan söz-söhbətdi, qınaqdı,
Gəlib gedən töhmətinə qonaqdı,
Söz də tapmır aldatmağa bu payız.

Çölü xəzan, içindəkin bilən yox,
Əl uzadıb göz yaşını silən yox,
Həsrətinə, hicranına gələn yox,
Yol da vermir qayıtmağa bu payız.

Əl eləyir bu qapıdan, o camdan,
Heç bilmirsən nə istəyir adamdan,
Ara-sıra ürəyinin adından
Pıçıldayır ağ varağa bu payız.

Gah odlayır, gah da tutur yağışa,
Çəkir səni bu enişə, yoxuşa,
Nə qoymur ki, başın eşqə qarışa,
Nə də qoymur unutmağa bu payız.

Günəşinin şəfəqləri ayazdı,
Təsəllisi, nəsihəti dayazdı,
Məhəbbəti ayrılığa boğazdı,
İnanma ki, vüsal doğa bu payız.



**YAZARLARIN TRİBUNASI** : **Elnarə QARAGÖZOVA**

## DÖVRÜMÜZDƏ REALLIQ – ALİMİN SÖZÜ, ELİN GÖZÜ…

**Qızıl kimi sözlər – dəyərli informasiya**
*(…hər şey olduğu kimi…)*
Bir neçə dəfə yazmışam. Bu dəfə də yazıram ki, tanışlarımı narahat edib, xəbər, vəd göndərib onlarla mənim münasibətimi pozmayasınız. Çünki onların da sizinlə eyni dünyagörüşünün sahibi olduğuna, mənə hörmətləri olmadığına qane olub münasibəti minimallaşdırmaq məcburiyyətində qalıram:

1. Əvvəlcədən yazılmış rəyin altına 50-100 manata qol çəkmirəm! Yox, "axmaq" deyiləm. İmzamı satmıram!
2. Plagiat olduğuna dair şübhəm olan elmi işə rəyçi, opponent olmuram. Savadınız ilk kəlmənizdən hiss olunur. Kimin nəyi

olmanız məni maraqlandırmır. Yox yenə “axmaq” deyiləm, sadəcə haram pul mənə lazım deyil.

3. Kitablarımın heç biri satışda yoxdur. Kitablarımı satmıram, dəyər verib oxuyacağına inandığım insanlara imzalı şəkildə hədiyyə edirəm.
4. Sifarişlə yazı yazmıram. Eviniz, maşınınız, vəzifəniz maraqlı deyil. Varınız özünüzə qismət olsun. Müəyyən məbləğ müqabilində tərif yazan və təqdimatlarda çıxış edən n qədər “alim” var. Çoxu da “gəncdir”. Buyurun dəvət edin. Mən “gələcəyini düşünməyən, vəzifə istəməyən adam” olaraq xoşbəxtəm. Azadam!
5. Xoşuma gələn mətnin müəllifinin kimliyi, haralı olması maraqlı deyil. Mən həmin şəxslə ailə qurmuram, qohum olmuram ki, şəcərəsini araşdırım. Yazısında işıq varsa, fərqlilik varsa, plagiat deyilsə, mənə maraqlıdırsa yazıram.
6. Kiminsə elmi yazısını xaricdə indeksli jurnallara təqdim etmirəm, çap etdirmirəm. Özüm də bu cür xidmətlərdən istifadə etmirəm. Ancaq öz yazılarımı çap etdirirəm. Bu cür işlərdən pul qazanmaq üçün istifadə edən alimlər var, onlara müraciət edin.
7. Mən pulla kiməsə elmi iş yazmıram. Yazanlar var. Onlara müraciət edin. Allah xeyir versin!
8. Mən poeziya, dram üzrə yox, nəsr üzrə mütəxəssisəm! Poeziyanı ancaq elmi işim tələb etdiyi məqamlarda ümumi mənzərəni göstərmək üçün təhlil edirəm.
9. Poeziyanı sevirəm, xoşum gələn nümunələri görəndə bəyənirəm, paylaşıram. Bu həmin nümunələr haqqında yazacağım anlamına gəlmir. Oxucu kimi bəyəndiyimi göstərir.
10. İnsanlara bütün hallarda hörmət və nəzakətlə davranmağı sevirəm. Yaşca böyüklərin hörmətini özəlliklə saxlayıram. Onların müəyyən sözlərinə, hərəkətlərinə yaşlı olduqlarına görə müəyyən həddə qədər gülümsəyə, tolerant yanaşa, yola verə bilirəm. Lakin qarşı tərəf kim olursa olsun həddini, qırmızı xətti keçəndə, davranışları mənim şərəf və ləyaqətimin, mütəxəssis kimi adımın ləkələnməsinə təhlükə yaradanda əlaqəni kəsirəm.

11. Dəfələrlə "dədəboyu verdiyim" insanların "keçən dəfə elədim heç nə olmadı, bu dəfə də keçər" fikri yanlışdır. Mən müəyyən həddən sonra bağışlamağı bacarmıram! Kim olmanız önəmli deyil!
12. Bu dostlara aiddir! Mənə "filankəs sənin haqqında belə dedi" xəbəri gətirməyin. Sizi dostluqdan silərəm. Səbəb: Dostum olsa idin sənin yanında mənim əleyhimə söz deməyə hünərləri olmazdı! Demək ki, sən də onlara "züy tutmusan"!
13. Heç kəsdən asılı deyiləm, heç kəsdən qorxmuram. Dövlətimin vətəndaşı kimi onun təmin etdiyi iş yerində alnım açıq, üzüm ağ, savadım, bacarığım həddində çalışıram, vətənimə, dövlətimə layiq olmağa çalışıram.
14. Bu yazıda kimisə nəzərdə tutmamışam. Gedib "özündən xoflu" adamlara "səni deyir" deməyin. Elə fikrim olsa birbaşa ad çəkərəm. Bu yazı müəyyən müraciətlərin qabağını kəsmək, "ünvanı səhv salanlara" məlumat vermək məqsədi ilə yazılıb!

***Mənbə:* *Elnara Garagozova***

**Mustafa Müseyiboğlu adına kitabxana**

**“YAZARLAR” FOTO QALEREYA, JURNALI PDF**



## TƏQDİMATLAR

“Yazarlar” jurnalının ***“TƏQDİMATLAR”*** rubrikası fəaliyyətə başlayıb. Foto-məqalələr **YAZARLAR.AZ** saytında və jurnalda dərc olunur.

# ESMİRA FUADIN “BÜTÖV AZƏRBAYCAN BƏDİİ TƏFƏKKÜRÜNDƏ ŞUŞA” ANTOLOGİYA-KİTABININ TƏQDİMATI – FOTOLAR:

19 sentyabr 2023-cü ildə Azərbaycan Yazıçılar Birliyinin “Natəvan” Poeziya klubunda Esmira Fuadın tərtibatı və Mina Rəşidin redaktorluğu ilə işıq üzü görmüş **“Bütöv Azərbaycan bədii təfəkküründə ŞUŞA”** Antologiya-kitabının təqdimat mərasimi baş tutub.

Tədbirin gedişində Esmira Fuda “Ziyadar” mükafatı, Mina Rəşidə isə “Fəxri Fərman” təqdim olunub. Xatırladaq ki, **“Bütöv Azərbaycan bədii təfəkküründə ŞUŞA”** Antologiya-kitabı Esmira xanımın Güney Azərbaycan ədəbiyyatı ilə bağlı sayca 14-cü kitabıdır.


Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi
"O taylı-bu taylı Azərbaycan
bədii təfəkküründə
Şuşa
QARABAĞ AZƏRBAYCANDIR!
"ZİYADAR"






Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi
"O taylı-bu taylı Azərbaycan
bədii təfəkküründə
Şuşa
QARABAĞ AZƏRBAYCANDIR!
Bakı – 2023
FƏXRİ DİPLOM
Mina Rəşid

# ZEMFİRA MƏHƏRRƏMLİ "ZƏFƏR YOLÇULARI" KİTABINI TƏQDİM EDİB

26 sentyabr 2023-cü il tarixində AYB-nin "Natəvan" zalında tanınmış yazıçı-publisist, Əməkdar jurnalist Zemfira Məhərrəmlinin **"Zəfər yolçuları" və digər Qarabağ mövzusunda olan bir neçə kitabının təqdimat mərasimi keçirilib. Məlumat üçün bildirək ki, "Zəfər yolçuları" kitabı İslambulda** Türk Ədəbiyyatı Vəqfinin "Turay" kitab yayın evində nəşr edilib.

Adı çəkilən əsər taleyimizə yazılan qanlı-qadalı Qarabağ savaşının başlanğıcından 44 günlük Vətən müharibəmizədək olan bir dövrü əhatə edir. Zemfira Məhərrəmlinin sayca 17-ci olan bu kitabı tarixi həqiqətlərin gələcək nəsillərə ötürülməsidə mühüm rol oynaycaq faydalı ümuələrdə iridir. Kitabın Türkiyə türkcəsinə uyğunlaşdırılması onun oxucu arealının daha da genişlənməsinə xidmət edən amillərdən biridir.

Kitabı Türkiyə türkcəsinə tanınmış türk yazarı, şair-publisist İmdat Avşar çevirib.

Tanınmış jurnalist, ictimai xadim, yazar xanım **Zemfira Məhərrəmli**nin 27 sentyabr Anım günü ərəfəsində Qarabağ mövzusunda olan; şəhidlərimizə, şanlı zəfərimizə həsr olunmuş kitabları ictimaiyyət nümayəndələri və oxucular tərəfindən maraqla qarşılanıb. Təqdimatda respublikamızın tanınmış ziyalıları, kitabsevərlər iştirak ediblər. Tədbirin gedişində **ZEMFİRA** xanıma "Ziyadar" Mükafatı təqdim olunub. Fotolar:


WWW.YAZARLAR
"ZİYADAR"





Zemfira xanım sinif yoldaşları üçün kitab imzalayır. (26.09.2023-Bakı)













***Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlinski***

## DOĞUM GÜNÜ TƏBRİKİ

Elçin Şıxlinski 4 oktyabr 1957-ci ildə Bakı şəhərində məşhur yazıçı İsmayıl Şıxlının ailəsində anadan olub. 1974-cü ildə 190 saylı orta məktəbi bitirib. 1974-79-cu illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsində ingilis və alman dilləri müəllimi ixtisası üzrə təhsil alıb.

2001-ci ilin yanvarından "Ayna" – "Zerkalo" qəzetlərinin təsisçisi və baş redaktoru, 1989-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2006-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin sədridir.

**YAZARLAR** cameəsi adından Elçin müəllimi təbrik edir, bütün həyat və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq!

**MƏLUMATI HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**

**Mustafa Müseyiboğlu adına kitabxana**

## QEYDLƏR




**Mustafa Müseyiboğlu adına kitabxana**

**VAQİF SULTANLININ YAZILARI**

**ZAUR USTACIN YAZILARI**

**> > > > MÜTLƏQ OXUYUN !!!**

**“YAZARLAR” JURNALI PDF**

==================================================

**<<<< WWW.YAZARLAR.AZ və WWW.USTAC.AZ >>>>**

*Əlaqə:* Tel: (**+994**) 70-390-39-93 E-mail: zauryazar@mail.ru

**"TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!"**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

"Yazarlar"ın redaksiyasında yığılıb səhifələnir,
"El kitab çapı" mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.10.2023
Sifariş: №:69
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.